www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 oktyabr 2025-ci il Çərşənbə axşamı № 190 (8800) Qiymәti 60 qəpik

**Xəbər**

## Xalq artistindən təsirli çağırış: "Uşaqlara bunu etməyin!.."

yazısı səh.12-də

**Gündəm**

### Amerikalı komandanı Bakıya gətirən səbəb



Vaşinqtonla strateji tərəfdaşlıqda yeni səhifə, ABŞ Azərbaycanı gücləndirir

yazısı səh.9-da

### İrəvandan Bakıya həddi aşan ittiham - reaksiya

yazısı səh.8-də

### Paşinyan-kilsə savaşı pik həddə: sui-qəsd riski

yazısı səh.6-da

### Türk ölkəsində siyasi böhran - nə baş verir?

yazısı səh.4-də

### Bakı və Ankaraya çirkin böhtan - revanşistlərin son patronları

yazısı səh.7-də

### Trampın "qamçı və kökə" taktikası - Putin güzəştə hazırlanır?

yazısı səh.14-də

### Azərbaycana 40 ədəd qırıcı satır - nəhəng anlaşma

yazısı səh.7-də

### Əhali üçün "yaşıl kart" təklifi - tibbi xidmətdə yenilik zərurəti

yazısı səh.11-də

### Azərbaycanda 108 nəfərin diplomu tanınmadı

yazısı səh.2-də

### Rusiya nefti su qiymətinə - Azərbaycan üçün risklər

yazısı səh.13-də

### Bələdiyyələrə yenəpul veriləcək - büdcə asılılığından necə qurtulmalı?

yazısı səh.15-də

# MEHDİYEVİN BİZNES İMPERİYASINDA UKRAYNA "İZİ"

"Boz kardinal"ın Kiyevdəki donuz ferması və kolbasa zavodu üzə çıxdı - yeni gizlinlər, sensasion detallar...



yazısı səh.3-də

# Qış gəlməmiş dəm qazı fəlakəti başladı - əhaliyə çağırış

"Səssiz qatil" işə düşdü: Gəncədə bir ailə zəhərləndi; ekspertlər faciədən yayınmağın yolларını açıqladı

yazısı səh.12-də



### Fəzail Ağamalıdan Ramiz Mehdiyevə şok sözlər

yazısı səh.5-də



### Bakının Kremldən iki dostla bağlı gözləntisi - biri Markov...

yazısı səh.6-da



*Fərhad Məmmədov:*

### "Konqresin bu layihəsi Azərbaycana təzyiqdir"

yazısı səh.14-də

yazısı səh.6-da

yazısı səh.6-da

# Azərbaycanda 108 nəfərin diplomu tanınmadı - siyahı



Sentyabr ayında xarici diplom tanınması üzrə 751 müraciətçinin 643-nə barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 108 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.

Bu barədə Modern.az-a Təhsildə Keyfiyyət Təminatı Agentliyindən məlumat verilib.

Bildirilib ki, mənfi qərarla yekunlaşan müraciətlərə nümunə olaraq 58 fakt üzrə tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olma, 28 əhəmiyyətli fərq (kredit sayı), 9 tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olma və əhəmiyyətli fərq (kredit sayı), 5 akkreditasiyasız ali təhsil müəssisəsi, 3 təhsilalma forması, 2 autentik (həqiqi) olmayan diplom, 1 akkreditasiyasız ali təhsil müəssisəsi və tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olma, 1 əczaçılıq ixtisası (qiyabi təhsilalma formasında), 1 tibb bacısı (qardaşı) işi (qiyabi təhsilalma formasında) ixtisasını göstərmək mümkündür.

Ölkələr üzrə Türkiyə Respublikasından 292, Rusiya Federasiyasından 176, Ukraynadan 123, Gürcüstandan 36, Belarus Respublikasından 23, Birləşmiş Krallıqdan 23, Amerika Birləşmiş Ştatlarından 10, İtaliya, Latviya respublikalarının və Macarıstanın hər birindən 6, Çex, Litva və Polşa respublikalarının hər birindən 5, Almaniya Federativ və Çin Xalq respublikalarının hər birindən 4, Belçika və Niderland krallıqları, İsveçrə Konfederasiyası və Koreya Respublikasının hər birindən 3, İspaniya Krallığı, Fransa, Qambiya və Qazaxıstan respublikalarının hər birindən 2, Pakistan İslam Respublikası, Avstriya, Estoniya, Qırğız respublikaları, Kanada, Malayziya, Yaponiya və Səudiyyə Ərəbistan Krallığının hər birindən 1 müraciət qeydə alınıb.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, hüquqşünaslıq üzrə 103, iqtisadiyyat üzrə 47, maliyyə üzrə 46, tibb və səhiyyə ixtisasları üzrə 44, biznesin idarə edilməsi üzrə 40 müraciət qeydə alınıb.



## Prezident Qazaxıstana səfər edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Qazaxıstan Respublikasına dövlət səfərinə gedib.**

Musavat.com xəbər verir ki, Astana şəhərinin Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Dövlətimizin başçısını Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev qarşılayıb.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçib.

## Sarayda fəhləni cərəyan vuraraq öldürüb

**Abşeronda qəbiristanlıqda fəhlə işləyən 47 yaşlı kişini elektrik cərəyanı vurub. APA-nın məlumatına görə, hadisə ötən gün rayonun Saray qəsəbəsində baş verib. Məlumata görə, qəsəbə ərazisində yerləşən qəbiristanlıqda fəhlə işləyən Bakı şəhər sakini 1978-ci il təvəllüdlü Ramin Mehdiyevi ehtiyatsızlıqdan elektrik naqilinə toxunması nəticəsində elektrik cərəyanı vuraraq öldürüb. Faktla bağlı araşdırma aparılır.**

## 379 nəfər dərmandan zəhərlənib

**Bu ilin doqquz ayı ərzində dərmandan zəhərlənmə səbəbilə KTM Toksikologiya şöbəsinə 379 nəfər qəbul edilib. Bu barədə Modern.az-a Kliniki Tibbi Mərkəzdən məlumat verilib.**

Qeyd olunub ki, zəhərlənən şəxslərin hər birinə zəruri tibbi yardım göstərilib: "Həkimlərin səylərinə baxmayaraq, 8 nəfərin həyatını xilas etmək mümkün olmayıb. Zəhərlənmə halları əsasən həkim məsləhəti olmadan qəbul edilən dərman vasitələri ilə bağlı olur".

## MTN-in daha bir zabiti azadlığa çıxdı

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) generalı Nizami Şirinov və rütbədən məhrum edilmiş Mövlam Şıxəliyevlə eyni cinayət işi üzrə məhkum edilmiş polkovnik Elcan Abdullayev vaxtından əvvəl azadlığa çıxıb. "Qafqazinfo"nun məlumatına görə, məhkəmənin qərarı ilə polkovnikin cəzasının qalan 1 ili şərti hesab edilib. Məhkum saxlanıldığı cəzaçəkmə müəssisəsindən buraxılıb.**

Elcan Abdullayev MTN-də idarə rəisi vəzifəsində çalışıb. O, vəzifə səlahiyyətlərini aşmaqla hədə-qorxu yolu ilə tələb etməkdə və digər ağır cinayətlərdə təqsirli bilinərək məhkum edilmişdi.

Xatırladaq ki, eyni iş üzrə məhkum edilmiş general Nizami Şirinov 2 həftə əvvəl azadlığa buraxılıb, Mövlam Şıxəliyev isə hazırda həbsdədir.



## ANAMA əməkdaşı Xocavənddə minaya düşüb

**Xocavənd rayonunda mina hadisəsi baş verib.**

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyindən (ANAMA) APA-ya verilən məlumata görə, işğaldan azad edilmiş Xocavənd rayonunun Tağaverd kəndi ərazisində oktyabrın 20-də mina hadisəsi qeydə alınıb.

Ekskavator operatoru vəzifəsində çalışan agentliyin əməkdaşı 1967-ci il təvəllüdlü Şirinov İlqar Vəli oğlu xidməti vəzifəsini yerinə yetirərkən baş verən piyada əleyhinə mina partlayışı nəticəsində xəsarət alıb.

Xəsarət alan şəxs hadisə yerindən təxliyə edilərək, rayon xəstəxanasına çatdırılıb. Xəsarət alan şəxsin sağ ayağı topuq nahiyəsindən amputasiya edilib. Vəziyyəti stabildir.

## Bakıda evdən 15 min manatlıq oğurluq

**Nəsimi rayonunda oğurluq edən şəxslər saxlanılıblar.**

APA DİN-ə istinadən xəbər verir ki, Nəsimi rayonunda yerləşən evlərin birindən 15 000 manat dəyərində qızıl-zinət əşyaları və nəğd pulun talanması barədə polisə məlumat daxil olub. Nəsimi RPİ 19-cu Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 38 yaşlı Z.Qasımov müəyyən olunaraq saxlanılıb.

Rayon ərazisində bir nəfərin içərisində 580 manat, bank kartları və sənədlər olan pul kisəsini oğurlamaqda şübhəli bilinən 66 yaşlı qadın da polis əməkdaşları tərəfindən saxlanılıb.

Hər iki faktla bağlı araşdırma aparılır.

## CNN-dən saxtakarlıq: ermənilərin adına çıxdılar

**CNN telekanalı (CNN Travel) "Dünyanın ən yaxşı 50 çörəyi" adlı siyahı tərtib edib.**

"Teleqraf" xəbər verir ki, ABŞ telekanalı yayımladığı materialda saxtakarlığa yol verib. Mənbə "araşdırma"sında lavaşı "erməni çörəyi" kimi qələmə verib.

**CNN bu barədə yazıb**: "Əgər erməni qayınananız sizə hula-hup ölçüsündə böyük bir lavaşla yaxınlaşırsa, qorxmayın, bu, Ermənistanda yeni evlənənlərin başı üzərində fırladılır ki, onların ömrü bolluq və firavanlıq içində keçsin. Bəlkə də bu ənənənin səbəbi elə lavaş bişirməyin kütləviliyi ilə bağlıdır.

Ənənəvi lavaşın hazırlanması üçün qadınlar bir yerə toplaşır, xəmir parçasını ot və ya yunla doldurulmuş yastığın üzərində yayırlar. Usta əllər yayılmış xəmiri konus formalı gil təndirin iç divarına yapışdırır. Orada lavaş bərk istilikdə çox tez bişir. Lavaş erməni mədəniyyətinin elə bir ayrılmaz hissəsidir ki, UNESCO tərəfindən Qeyri-maddi Mədəni İrs kimi tanınıb".

Qeyd edək ki, lavaş (əgər varsa) erməni mətbəxinə məxsus bir çörək növü deyil. Lavaş Azərbaycan, Türkiyə və digər türk ölkələrində geniş şəkildə yayılıb və əsrlərdir istehlak olunur.

Araşdırmaya görə, "lavaş" sözünün mənşəyi iki hissədən ibarətdir: "lav" və ya "lay" ifadələri "qat" deməkdir, "aş" isə bütün türk dillərində "qida" anlamı verir. Beləliklə, "lavaş" sözü "qat-qat qida" anlamına gəlir. Çox maraqlıdır ki, bunu "özününküləşdirən" ermənilər nədənsə ad seçimində də özlərini çox yormayıblar, elə türk dilində olduğu kimi lavaş adıyla dünyaya "erməni çörəyi" kimi sırımağa çalışırlar.

## Yol qəzalarının çoxu piyada vurulması ilə bağlı olub

**Piyadaların iştirakı ilə qeydə alınan yol qəzaları təkcə ayrı-ayrı fərdlərə deyil, bütövlükdə cəmiyyətə itkilər hesabına başa gəlir. Təkcə cari ilin 9 ayı ərzində piyadaların vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələri respublika üzrə ümumi yol qəzalarının 39,1 faizini, Bakı şəhəri üzrə isə 59.6 faizini təşkil edib.**

Musavat.com xəbər verir ki, bu barədə DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin məlumatında deyilir.

Qeyd olunub ki, bu göstəricilərin formalaşmasında piyada məsuliyyətsizliyi az rol oynamayıb: "Təəssüf ki, piyadaların məhz piyada keçidlərin yaxınlığında vurulması yol hərəkəti prosesində şəxsi məsuliyyət məsələsinin aktuallığını yenidən gündəmə gətirir.

Baş Dövlət Yol Polisi İdarəsi bir daha piyadalara müraciət edərək onlardan yolu nəzərdə tutulmuş yerlərdən keçməyi, sutkanın qaranlıq vaxtı xüsusilə ehtiyatlı olmağı, yolu keçərkən diqqəti yayındıran hərəkətlərdən, mobil telefon, yaxud qulaqcıqdan istifadə etməkdən çəkinməyi, qəflətən avtomobil yoluna çıxmamağı xahiş edir.

## Xaçmazda 44 yaşlı adamı qohumu öldürdü

**Xaçmazda qəsdən adam öldürməkdə şübhəli bilinən şəxs tutulub.**

Xaçmaz Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, oktyabrın 19-da saat 19 radələrində Xaçmaz rayonu ərazisində 1981-ci il təvəllüdlü Emin Cəlilovun öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Araşdırma zamanı 1988-ci il təvəllüdlü Rafiq Həbibovun tüfəngdən atəş açaraq Emin Cəlilovu qəsdən öldürməsində əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Xaçmaz Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Rafiq Həbibov rayon prokurorluğu tərəfindən şübhəli şəxs qismində tutulub. İbtidai istintaq davam etdirilir.

YENİ MÜSAVAT
N 190 (8800) 21 oktyabr 2025

# Mehdìyevìn bìznes ìmperìyasında Ukrayna ìzì

## "Boz kardinal"ın Kiyevdə donuz ferması və kolbasa zavodu üzə çıxdı - sensasion detallar



**Bu gün dövlətə xəyanət ittihamı ilə üz-üzə qalan Ramiz Mehdiyev təkcə ölkə daxilində deyil, ölkə xaricində də şəbəkə qurub. Və bu şəbəkə zaman-zaman Azərbaycana qarşı ən ağlasığmaz planlarda yer alıb. İndi isə həmin imperiyanın xarici qolu olan Ukrayna xətti ifşa olunmaqdadır.**

Sabiq nəqliyyat naziri Ziya Məmmədovun qardaşı Elton Məmmədovun Ukraynanın separatçıların nəzarətində olan Donetsk bölgəsinə milyonlarla dollar sərmayə yatırması vaxtilə Azərbaycan diplomatiyası üçün biabırçı böhrana çevrilmişdi. Ukrayna Təhlükəsizlik Xidmətinin ifşa etdiyi bu fakt nəticəsində Kiyev rəsmi Bakıya nota göndərmişdi.

Dövlətimizin beynəlxalq nüfuzunu sarsıdan bu olayda Ramiz Mehdiyev nə etdi?

O, dövlətin maraqlarını deyil, öz biznes şərikini müdafiə etdi! Prezident Administrasiyasında keçirdiyi qapalı müşavirədə günahı Elton Məmmədovda yox, Azərbaycan səfirində və korrupsiya idarəsində axtardı. Bir neçə gün sonra həmin səfir geri çağırıldı. Çox keçmədi ki, Mehdiyevin ən sadiq kadrı, ona "ağsaqqalım, dostum, sirdaşım" deməkdən yorulmayan, "Ramiz Mehdiyevin kitabları hər kəsin masaüstü kitab olmalıdır" deyən Elmira Axundova Ukraynaya səfir təyin olundu. Aydın idi ki, bu, diplomatik təyinat yox, "səfir alveri" idi. Elmira Axundovanın nə diplomatik təcrübəsi vardı, nə xarici siyasət biliyi, nə də beynəlxalq imici. Bu məsələni qaldıranlara isə qeyri-adekvat cavablar verilirdi.

Mətbuatda yayılan məlumatlara görə, Axundova bu postu külli miqdarda rüşvət qarşılığında əldə etmişdi. Heç kim bu iddianı təkzib etmədi.

Demokrat.az-ın yazdığına görə, o zaman Mehdiyevin Ukraynaya "yola saldığı" səfirin əlinə xüsusi tapşırıqlar verilib. Kiyev vilayətinin Makarov qəsəbəsində Ramiz Mehdiyevin nəhəng donuz ferması və kolbasa zavodu fəaliyyət göstərir. Bəli, Azərbaycan xalqına "elm", "mənəviyyat", "əxlaq" dərsi keçən Ramiz Mehdiyev əslində "donuz biznesi" ilə məşğul imiş. İroniya ondadır ki, Qarabağda erməni separatçılarının başçılarının qurduğu biznesi Ukraynanın separatçılar tərəfindən işğal olunmuş torpaqlarında Mehdiyev təkrarlayıb! Zavodun məhsulları Ukraynadan Azərbaycan bazarına da idxal olunub. Bu müəssisəyə tez-tez baş çəkən isə onun oğlu, general Teymur Mehdiyev olub. Beləcə, Elmira Axundovanın "ağsaqqalı" "kolbasa mafiyası"nın "matriarxı"na çevrilib.

44 günlük Vətən müharibəsindən sonra Elmira Axundovanın Ukraynada sərgilədiyi mövqe xəyanətin diplomatik forması kimi açıq şəkildə göründü. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu canı-qanı bahasına torpaqları azad edərkən, Elmira Axundova Kiyevdə oturub dövlətin qələbəsinə kölgə salırdı. 2020-ci ilin noyabrında, Ermənistan kapitulyasiya aktına imza atandan az sonra Axundova Ukraynanın "Svoboda Slova" televerilişinə qatılaraq, Türkiyənin rolunu danıb, Rusiyaya minnətdarlıq bildirib. Bəli, Ramiz Mehdiyevin səfiri, Azərbaycan Ordusunun və Prezident İlham Əliyevin adını çəkmədən, "bizə Türkiyə kömək etmədi" deyə açıqlama vermişdi. Halbuki hər kəs qələbənin qazanılmasında İlham Əliyev, ordu və xalq birliyindən danışırdı.

Ramiz Mehdiyevin dövlətə xəyanət ittihamı ilə istintaqa cəlb olunması ilə o günlərdə baş verənlərin alt qatı daha aydın sezilir. Elmira Axundovanın səfir olaraq danışıqları Azərbaycana qarşı təkcə diplomatik rüsvayçılıq deyildi, ideoloji xəyanət idi.

Həmin çıxışda səfirin mövqeyi ilə Mehdiyevin illərlə gizlətmədiyi anti-Türkiyə, antimilli xətt üst-üstə düşürdü. Ona görə də Elmira Axundova istintaqa cəlb edilməlidir. Bu gün ortada olan məlumatlar Elmira Axundovanın da istintaqa cəlb edilməsini labüd edir. O, təkcə Mehdiyevin təyin etdiyi səfir olmayıb, onun xarici şəbəkəsinin açar fiqurlarından biri kimi fəaliyyət göstərib. Axundova Ukraynada Mehdiyevin maraqlarını qoruyub. Bu faktlar hüquq-mühafizə orqanları üçün artıq prosessual hərəkətlərin başlanması üçün kifayət qədər əsas verir. Axundovanın istintaqa cəlbi ilə Ramiz Mehdiyevin xarici əlaqələri ifşa oluna bilər.

Bütün bunların fonunda Ramiz Mehdiyevin oğlu, general Teymur Mehdiyevin hələ də nazir müavini postunda saxlanılması ciddi suallar doğurur. Atası dövlətə xəyanət, çirkli pulların yuyulması və səlahiyyətdən sui-istifadə ittihamı ilə istintaq altındadırsa, oğlu necə olur ki, dövlətin yüksək postunda fəaliyyətini davam etdirir?

Bu, təkcə etik məsələ deyil, həm də dövlət idarəçiliyinin prinsipiallığına zərbədir. Ramiz Mehdiyevin sisteminin qalıqları hələ də vəzifə kreslolarında əyləşibsə, bu, o deməkdir ki, "xəyanət şəbəkəsi" tam ləğv olunmayıb. Dövlətin maraqları naminə bu zəncirin hər halqası, istər Mehdiyev, istər Axundova, istərsə də onun ailə üzvləri tam hüquqi məsuliyyətə cəlb edilməlidir.

Ramiz Mehdiyev bu gün ev dustaqlığında olsa da, onun illərlə formalaşdırdığı gizli sistem hələ də siyasi və iqtisadi müstəvilərdə izlərini saxlayır. Dövlətin uzun illər susduğu bu xəyanət şəbəkəsinin ifşası Azərbaycan üçün təkcə bir istintaq işi deyil, həm də milli təhlükəsizliyin bərpası prosesidir.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Heydərov Mehdiyevin oğlunu niyə qoruyur...



**Musavat.com xəbər verir ki, Prezident Administrasiyasının sabiq rəhbəri, "boz kardinal" adlandırılan Ramiz Mehdiyevin həbsi ilə bağlı rezonans davam etdiyi bir vaxtda diqqət mərkəzinə düşən əsas fiqurlardan biri onun oğlu - Teymur (Timur) Mehdiyevdir.**

Ən təəccüblüsü budur ki, atası dövlətə xəyanət, çirkli pulların yuyulması, dövlət quruluşunu dəyişmək cəhdi kimi maddələrlə istintaqa cəlb olunduğu bir dönəmdə Teymur Mehdiyev hələ də vəzifə başındadır. O, hazırda fövqəladə hallar naziri Kəmaləddin Heydərovun müavini postunu tutur.

Belə bir vəziyyətdə haqlı sual yaranır: Kəmaləddin Heydərov niyə Ramiz Mehdiyevin oğlunu qoruyur?

Əgər bu gün eyni vəziyyət istənilən vəzifəli məmurun və ya ictimai-siyasi xadimin ailə üzvünün başına gəlsəydi, onların yeddi arxa dönəni istintaqa çağırılar, işdən uzaqlaşdırılar, hətta həbs edilərdi. Amma görünən budur ki, Teymur Mehdiyev üçün başqa qaydalar işləyir.

Mənbələrə görə, bu toxunulmazlığın səbəbi təkcə vəzifə iyerarxiyası deyil - Kəmaləddin Heydərovun köhnə komanda ilə olan əlaqələri və xüsusilə Ramiz Mehdiyevlə illərlə formalaşmış qarşılıqlı münasibətləridir.

Kəmaləddin Heydərov illər boyu hakimiyyətin "ağır çəkili" simalarından biri olub. Onun Ramiz Mehdiyevlə münasibətləri bir zamanlar gərginliklə müşahidə olunsa da, son on ildə sabit və qarşılıqlı anlaşma müstəvisinə keçib. Görünür, bu münasibətlərdən dolayıdır ki, Mehdiyev elitasının bir çox üzvləri siyasi səhnədən uzaqlaşdırılsa da, onun oğlu vəzifədə qalmaqda davam edib.

Bəzi iddialara görə, bu, Heydərovun şəxsi qərarı deyil, köhnə komandanın qalıqları arasında gedən səssiz müqavimətin göstəricisidir. Ramiz Mehdiyevin bütün yaxın çevrəsi - kürəkənləri, əlaqələndiriciləri, sabiq dostları bir-birinin ardınca istintaqa cəlb olunarkən, yalnız bir fiqur - oğlu Teymur Mehdiyev toxunulmaz qalır.

Bu hərəkəti ilə Kəmaləddin Heydərov oxları öz üzərinə çəkmiş olur. "Köhnə qvardiya"nın yüksək vəzifədə qalan yeganə üzvü, Mehdiyev elitasının son qalası Kəmaləddin Heydərov üçün prinsiplər və dostluqlar böyük rol oynaya bilər; lakin dövlət idarəetməsi başqa prinsip və yanaşmalar tələb edir.

**Teymur Mehdiyev kimdir? - "Boz kardinalın oğlu"nun dosyesi**

Teymur Ramiz oğlu Mehdiyev 25 iyun 1975-ci ildə Gürcüstanın Abxaziya bölgəsində, Suxumi şəhərində anadan olub. 1982-1992-ci illərdə Bakı şəhərində 134 nömrəli məktəbdə təhsil alıb, 1992-ci ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə daxil olub və 1997-ci ildə oranı bitirib.

O, qısa müddət ərzində Azərbaycanın demək olar ki, bütün əsas strukturlarında çalışıb:

1997-1999-cu illərdə Milli Təhlükəsizlik Nazirliyi;

1999-2001-ci illərdə Daxili İşlər Nazirliyi;

2001-2004-cü illərdə Xarici İşlər Nazirliyi;

2004-2006-cı illərdə Gənclər, İdman və Turizm nazirinin müavini;

2006-2011-ci illərdə Mədəniyyət və Turizm nazirinin müavini;

2011-2014-cü illərdə Dövlət Miqrasiya Xidməti rəisinin birinci müavini olub.

2014-cü ildə Fövqəladə Hallar nazirinin müavini təyin olunub və ona general-mayor rütbəsi verilib. 2018-ci ildə isə "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Mehdiyevə salam verən deputatlar, sabiq vəzifəlilər onunla birgə media və istintaq hədəfinə düşdüyü halda, general-mayor oğlunun, onu himayə edən K.Heydərovun hər şeydən kənarda qalması təəccüb doğurur.

Hazırda ictimai rəyin diqqəti məhz bu suala yönəlib:

"Ramiz Mehdiyev ev həbsindədirsə, niyə oğlu general postunda qalır?"




# "Yeni Müsavat" - rəqəmlərə sığmayan yolun 8800 addımı

**Azərbaycan mətbuatının öncüllərindən olan "Yeni Müsavat" qəzeti növbəti əlamətdar nəşr nöqtəsinə çatdı. Bu gün - 21 oktyabr 2025-ci il tarixində qəzetin 8800-cü sayı işıq üzü görüb. Bu rəqəm sadəcə statistik göstərici deyil - 35 ildən artıq bir dövrə sığan jurnalistika ənənəsinin, prinsipial mövqeyin və oxucu etimadının təcəssümüdür.**

"Yeni Müsavat" qəzeti "Yeni Müsavat" Media Qrupuna məxsus print (çap) KİV-dir. Qəzetin ilk sayı 1989-cu il noyabrın 10-da dərc edilib. Qurucusu və baş redaktoru - həm də Media Qrupunun sahibi Rauf Arifoğludur. İlk illərdə - 1989-1991-ci illərdə "Yeni Müsavat" gizli şəkildə fəaliyyət göstərib və sovet rejiminə qarşı yaradılmış Azərbaycan Milli Demokrat Yeni Müsavat Partiyasının mətbu orqanı kimi çıxış edib. 1991-ci ilin dekabrında, müstəqillik əldə olunandan sonra isə rəsmi qeydiyyata alınıb və açıq fəaliyyətə başlayıb.

8800 say - bu, bir yolçuluğun rəqəmlərlə ifadə olunmuş salnaməsidir. Müxtəlif illər, fərqli mərhələlər, siyasi təzyiqlər, dəyişən hakimiyyətlər və dəyişməyən prinsiplər bu salnamənin əsas sütunları olub. Hər bir sayın arxasında yazan bir əl, düşünən bir beyin, qorxmayan bir ürək dayanıb. 8800 dəfə oxucunun evinə, masasına, düşüncəsinə yol tapan sözlər - bəzən sual, bəzən cavab, bəzən xəbər, bəzən ümid olub.

Zaman dəyişib - texnologiyalar, formatlar, oxucu vərdişləri də. Amma "Yeni Müsavat" öz səsinə, mövqeyinə sadiq qalıb. Çünki bu qəzet yalnız bir informasiya vasitəsi deyil, həm də bir dövrün aynasıdır. Oxucu ilə birgə yaşayan, bəzən yorulan, bəzən ruhlanan, amma heç vaxt dayanmağı düşünməyən bir mətbuat orqanıdır. Bu yaşantının davam etməsi üçün təkcə kağız, mürəkkəb və redaktor deyil, həm də inam, sevgi və mübarizə ruhu vacibdir. Elə bir ruh ki, onu bu illər ərzində minlərlə oxucu yaşatdı - qorudu, inandı, tənqid etdi, bəyəndi, amma heç vaxt unutmadı.

Bu gün "Yeni Müsavat"ın 8800-cü sayı oxucuların əlinə çatıb. Bəziləri üçün bu, bir çapdır. Amma onu yazanlar, hazırlayanlar və yaşadanlar üçün bu, bir qürur anıdır. Çünki hər say, hər səhifə, hər cümlə bir tarixdir. Və bu yol davam edəcək. Çünki bu yolun sonunda yalnız bir məqsəd var: azad söz, dürüst xəbər və oxucu ilə qırılmaz bağ...

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

## Yeni həbslər: sülh müqaviləsinin yolu təmizlənir?



**Ən yaxşı müdafiə hücumdur. Belə görünür ki, Ermənistan Baş naziri Nikol Paşinyan həm öz hakimiyyətini qorumaq, həm də sülh müqaviləsinin yolunu təmizləmək üçün yaxınlaşan seçkilərədək Rusiyaya bağlı radikal-revanşist müxalifətə və kilsəyə, eləcə də "5-ci kolona" qarşı məhz belə bir taktikanı tərcih edəcək. Bu da təzə fakt.**

Ölkənin Korrupsiyaya Qarşı Mübarizə Komitəsi bu gün Gümrü meri Vardan Qukasyan da daxil, 8 nəfərin həbsini əks etdirən video yayımlayıb. Onlar külli miqdarda rüşvət almaq və verməkdə təqsirləndirilirlər. Ötən həftə bir qrup din xadiminin həbsinin ardınca bu, növbəti hay-küylü tutuqlanma sayıla bilər...

Məsələ ondadır ki, Qukasyan Rusiyaya bağlı müxalifətin odioz təmsilçisi sayılır. Gümrüdəki son mer seçkilərində hakim "Mülki Müqavilə" partiyası qalib gəlsə də, 50%-lik üstünlüyə malik olmadığı üçün müxalifət fraksiyaları birləşərək onu mer postuna gətirmişdilər. Hətta eyni modelin parlament seçkilərində təkrarlana biləcəyinə və Paşinyanı seçki yolu ilə hakimiyyətdən salacaqlarına ümidli idilər. Daha dəqiqi, ümidlidirlər.

Amma sən saydığını say, gör Paşinayan nə sayır. Baş nazir bununla əslində bir neçə "dovşan" vurmuş olur. Əvvəla, seçkilər ərəfəsi radikal müxalifətin rüşvətxor-korrupsioner imicini gücləndirməklə onun olan-qalan nüfuzunu da puç edir. İkinci yandan, keçmiş xunta rejiminin hər hansı formada bərpasının nə dərəcədə təhlükəli olduğunu bir daha ictimai rəyə aşılayır...

Bu, əlbəttə, Azərbaycanın da maraqlarına da uyğundur. Çünki bizə sülh prosesini tamamlamaq və iki xalq arasında konflikt səhifəsini həmişəlik qapatmaq lazımdır. Bu isə yalnız Nikol Paşinyan komandası ilə mümkündür. Kremlə bağlı radikal-revanşistlər prosesə maksimum əngəl olmağa çalışacaqlar.

Səbəb bəlli: iki qonşu arasında münaqişə bitəndən və sülh müqaviləsi imzalanandan, ardınca Türkiyə- Ermənistan münasibətləri normallaşandan sonra Rusiyanın həmin o Gümrüdəki hərbi bazasına, sərhəddə "FSB" hərbçilərinə, bütövlükdə Ermənistandakı mövcudluğuna lüzum qalmayacaq. Odur ki, hamı tələsir - həm hakimiyyət və onun "rəngarəng" opponentləri, həm də təbii ki, Rusiya...

Azərbaycan isə Paşinyan hökuməti ilə deyil, Ermənistanla, erməni xalqı ilə sülh müqaviləsi imzalamaq niyyətindədir. Yəni bütün zamanlar və hakimiyyətlər üçün hüquqi qüvvəsini saxlayacaq bir sənəddən söhbət gedir. Bakı konstitusiya məsələsində məhz bu səbəbə israr və prinsipiallıq göstərir. Yoxsa avqustun 8-də Ağ Evdə sülh müqaviləsi imzalana da bilərdi.

Rusiyaya gəlincə, şəkk-şübhə yox ki, rəsmi Moskva əlindən gələni edəcək ki, Ermənistandakı seçkilərdə hakim partiya qalib gəlməsin. Yaxud qələbə qazansa belə, parlamentdə 50%-lik üstünlüyə malik olmasın. Bu, dinc variantdır. "B planı" da istisna deyil. Sui-qəsd variantını deyirik...

Əlbəttə, artıq 8 ildir hakimiyyətdə olan Paşinyan riskləri ciddiyə almaya bilməz. Ona da şübhə yox ki, Qərb, özəlliklə də onun lokomotivi ABŞ təhlükəsizliklə bağlı Ermənistan hökumətini zəruri kəşfiyyat məlumatları ilə təmin edir və edəcək. Xüsusən də Ağ Evdə Trampla birgə məlum sənədlərin imzalanmasından sonra.

Unutmayaq, İrəvandakı Amerika səfirliyi əməkdaşların sayına görə, MDV-də ən böyük, dünyada isə ikinci böyük diplomatik nümayəndəlikdir. Bu da təsadüfi deyil ki, Qərbin insan haqları təşkilatları Paşinyanın içəri atdırdığı şəxslərlə bağlı (Rusiyalı oliqarx-milyarder Samvel Karapetyan, din xadimləri və s.) indiyədək ciddi etiraz bildirməyib.

Nəhayət, erməni cəmiyyəti əgər 44 günlük müharibədən sonra keçirilən (2021) parlament seçkilərində Paşinyan partiyasını qalib edibsə, niyə də daha bir dəfə ona mandat verib qonşularla barışıq prosesinin yekunlaşmasını təmin eləməsin? 2021-də sülh istəyən bir xalq, 2026-da, qüvvələr balansının tam dəqiqləşdiyi vaxtda müharibə partiyasınamı səs verəcək? Bu ki intihar olar(dı)...

❑ **Zahid SƏFƏROĞLU, "Yeni Müsavat"**

---

**Şimali Kipr Türk Respublikasında keçirilən prezident seçkisi ölkənin siyasi həyatında dönüş nöqtəsinə çevrildi. Cümhuriyyətçi Türk Partiyasının (CTP) sədri, keçmiş baş nazir Tufan Erhürman səslərin 62,8 faizini toplayaraq seçkilərin qalibi olub. Onun rəqibi, müstəqil namizəd və hazırkı prezident Ersin Tatar isə 35,7 faiz səs toplayıb. Erhürman qələbə bəyanatında bildirdi ki, Kipr türkləri artıq ədalətli, şəffaf və sülhə əsaslanan gələcək istəyir:**

"Biz Kipr türklərinin hüquq və ləyaqətini qoruyaraq, daha ədalətli və dinc gələcəyə doğru addımlayacağıq. Xarici siyasətimiz Türkiyə ilə məsləhətləşmələr formasında davam edəcək, kimsənin bundan şübhəsi olmasın".


Ersin Tatar


Tufan Erhürman

# Türk ölkəsində siyasi böhran

## Seçkidə müxalifətin qələbəsi balansı dəyişdi

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Tufan Erhürmanı təbrik edərək Ankaranın Şimali Kiprin suveren hüquq və maraqlarını qorumağa davam edəcəyini bəyan edib.

"Yeni Müsavat"a danışan **Lefkoşada yaşayan iş adamı, Qarabağ qazisi Naim Aydoğdu**nun sözlərinə görə, bu nəticə əslində uzun illər yığılıb qalan narazılığın ifadəsidir: "Ulusal Birlik Partiyası (UBP) daxilində uzun müddətdir davam edən siyasi çəkişmələr, daxili qarşıdurmalar və korrupsiya ittihamları seçicilərdə ciddi narazılıq yaradıb. Partiya daxilindəki bu gərginlik nəticəsində UBP-yə sadiq olan elektoratın mühüm hissəsi bu dəfə səsini Tufan Erhürmana verdi".

Ekspertlərin fikrincə, seçicilər bu dəfə fərqli bir siyasət, daha şəffaf və sosialyönümlü idarəetmə istədiklərini göstərdilər. Erhürmanın seçki kampaniyası da məhz bu mövzular üzərində qurulmuşdu - hesabatlılıq, sosial ədalət, gənclərin qərarvermədə iştirakı və "öz gələcəyimizi özümüz müəyyən edək" mesajı.

1970-ci ildə Lefkoşada anadan olan Tufan Erhürman hüquqşünas, akademik və təcrübəli siyasətçidir. Ankara Universitetinin Hüquq fakültəsini bitirib, konstitusiya hüququ üzrə magistr və doktor dərəcələri alıb.

Erhürman 2013-cü ildən parlament üzvüdür, 2018-2019-cu illərdə isə Şimali Kiprin baş naziri olub. Onun rəhbərliyi dövrü şəffaf idarəçilik və sosial islahatlarla yadda qalıb.

Yeni prezident siyasi baxışlarına görə sosial-demokrat xətti təmsil edir. O, Kipr məsələsində iki icmalı federasiya modelini dəstəkləyir və Kipr türklərinin beynəlxalq səviyyədə tanınması üçün diplomatik səylərin artırılmasını vacib sayır.

Erhürmanın qələbəsi ilə Şimali Kiprdə yeni siyasi dövr başlayır. Seçici artıq təkcə partiya loyallığına deyil, idarəetmə keyfiyyətinə səs verir.

Yeni hökumətin qarşısında bir neçə mühüm məsələ dayanır: İqtisadi sabitliyin bərpası və sosial ədalətin təmin edilməsi, cəmiyyətin etimadını sarsıdan korrupsiya hallarına son qoyulması, Türkiyə ilə strateji əməkdaşlığın davam etdirilməsi, eyni zamanda daxili siyasi müstəqilliyin qorunması, beynəlxalq tanınma istiqamətində diplomatik fəallığın artırılması.

Tufan Erhürmanın qələbəsi həm də yeni nəsil siyasətçilərin yüksəlişi kimi qiymətləndirilə bilər. Bu seçkinin nəticəsi göstərdi ki, Şimali Kiprdə seçici artıq dəyişiklik, ədalət və şəffaflıq istəyir".

"Ötən gün Şimali Kiprdə keçirilən prezident seçkisində Cümhuriyyətçi Türk Partiyasının (CTP) sədri Tufan Erhürmanın qələbəsi heç də birmənalı qarşılanmayıb. Əslində seçkilərdə müxalif partiya nümayəndəsinin qalib gəlməsində iqtisadi səbəblər daha çoxdur. Erhürmanın şüarlarında konfederativ dövlət (Şimalı Kiprlə Cənubi Kiprin birləşməsi) amili önə çəkilsə də, digər amillər daha güclü idi".

Bu sözləri Teleqraf-a **ReAl Partiyasının sədri Natiq Cəfərli** deyib. O, vaxtilə "Annan Planı" (BMT-nin keçmiş baş katibi Kofi Annanın adını daşıyan plan) türk və yunan hissələrinə bölünmüş Kipr adasının müstəqil dövlətdə birləşməsinin təklif edildiyini xatırladıb: "Buna isə o vaxt Şimalı Kipr razılıq versə də, Cənubi Kipr dəstək verməmişdi. Ona görə də hazırkı reallıq Erhürmanın istək və arzuları ilə bağlı deyil. Cənubi Kipr konfederativ dövlət modelində birgə yaşayışa razı olmur. Onlar bütövlükdə bölgənin Kiprə daxil edilməsini istəyir. Bu mənada Erhürmanın siyasi şüarları Türkiyədə narahatlıq yaratsa da, ciddi proseslərə yol açmayacaq".

**Natiq Cəfərliyə görə, ŞKTC-nin Prezidenti Ersin Tatarın seçkilərdə məğlubiyyəti birbaşa iqtisadi amillərlə bağlıdır:** "Şimali Kiprdə yüksək inflyasiya var. Son üç ildə ölkədə tək lirə ilə deyil, dollar və avro müstəvisində artım mövcuddur. Mənzil və ərzaq qiymətlərinin artması narazılığı gücləndirib. Ersin Tatar da məhz iqtisadi problemləri həll edə bilmədiyinə görə seçkilərdə Erhürmana uduzdu. Siyasi şüarlarla bağlı narahatlıq olsa da, onun reallaşması mümkün deyil. Şimali Kiprlə Türkiyə arasında ciddi fikir ayrılıqlarının olacağı ehtimalı azdır. Mövqelərdə müəyyən korreksiyalar olsa belə Şimali Kipr Türkiyədən asılıdır. Təhlükəsizlik, iqtisadi məsələlər bir yana qalsın, içməli su belə Türkiyədən alınır".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

---

## İmamoğlunun məhkəməsində dava düşdü



**İstanbul Böyükşəhər Bələdiyyəsinin sabiq sədri Əkrəm İmamoğlunun bu gün "saxta diplom" işi üzrə ikinci məhkəməsi keçirilir.**

Axar.az xəbər verir ki, bu barədə "Haber7" məlumat yayıb.

Bildirilib ki, məhkəmədən əvvəl tamaşaçı qismində məhkəmə salonuna daxil olmağa çalışan şəxslərlə polis arasında gərginlik yaranıb. Hətta bir qrup şəxs baryerləri dağıdıb və məhkəmə zalının qarşısına gələrək içəri keçmək istəyib. Nəticədə polislərlə camaat arasında əlbəyaxa dava düşüb.

Baş verən dava nəticəsində məhkəmə zalına girişlər bağlanıb. Gərginlik aradan qalxdıqdan sonra dinləmənin başlayacağı gözlənilir.

# "Düşündüm ki, yəqin düz yola gəlib, peşmandır" - Ramiz Mehdiyev haqqında şok açıqlamalar

## Fəzail Ağamalı: "O məktubda dövlətçiliyə ziyan vura biləcək bir kəlmə belə yoxdur, varsa, xalqdan üzr istəməyə hazıram"

**Ağır ittihamlarla barəsində ev dustaqlığı seçilmiş Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevi ən çox tənqid edənlərdən biri Ana Vətən Partiyasının sədri, sabiq deputat Fəzail Ağamalı olub.**

Bugünlərdə mediaya verdiyi açıqlamalarda eks-deputat bir daha illər boyu keçmiş administrasiya rəhbəri ilə apardığı mübarizədən bəhs edib. Amma bir neçə gün sonra F.Ağamalının vaxtilə R.Mehdiyevə təbrik məktubu yazması ortaya çıxdı. Globalinfo.az saytı partiya sədrinin R.Mehdiyevə ünvanladığı məktubun mətnini yayıb. "Hörmətli, Ramiz müəllim, sizi yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, milli dövlətçiliyimizin güclənməsində göstərdiyiniz yorulmaz fəaliyyətdə uğurlar arzulayıram.

Ulu öndərimiz Heydər Əliyevin yaxın silahdaşı kimi, ən çətin günlərdə dövlətçiliyimizin qorunub saxlanılması va möhkəmləndirilməsi və onun yüksək inkişaf səviyyəsinə qaldırılmasında müstəsna rol oynayan möhtərəm cənab prezidentimiz İlham Əliyev siyasətinin həyata keçirilməsində göstərdiyiniz ciddi xidmətlər Sizə ölkəmizdə böyük nüfuz qazandırmışdır.

Müasir dövrümüzdə ictimai fikir tarixinə, fəlsəfi baxışlar sisteminə bəxş etdiyiniz fundamental əsərləriniz Sizə, həm də görkəmli tədqiqatçı kimi, cəmiyyətimizdə sabnallı alim statusu qazandırmışdır. Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, Sizə möhkam cansağlığı, məsuliyyətli va şərəfli işinizdə uğurlar diləyirəm", məktubda bildirilir. Məlum olduğu kimi, Prezident Administrasiyasının sabiq rəhbəri, AMEA-nın sabiq prezidenti, akademik Ramiz Mehdiyev barəsində Səbayel Rayon Məhkəməsinin qərarı ilə 4 aylıq ev dustaqlığı qətimkan tədbiri seçilib. O, Cinayət Məcəlləsinin 274-cü (Dövlətə xəyanət), 278.1-ci (Hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama) və 193-1-ci (Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması) maddələri ilə ittiham olunur.

Maraqlıdır, vaxtilə Fəzail Ağamalını açıq şəkildə mübarizə apardığı R.Mehdiyevə təbrik yazmağa nə vadar edib? Partiya sədri bu mövzuda "Yeni Müsavat"ın suallarını cavablandırıb.

**- Fəzail bəy, bugünlərdə sizin Ramiz Mehdiyevlə bağlı sərt tənqidi fikirlərinizdən sonra mətbuatda bir məktubunuz dərc olundu. 2018-ci ildə Ramiz Mehdiyevə məktub yazmısınız...**

- Yubileylə bağlı.

**- Bəli. Bu məktubun mətninin ortaya çıxması sizə təəccüblü gəlmədi ki?**

- Təəccüblü göründü ki, bu məktub niyə indiki situasiyada yayıldı? Ramiz Mehdiyevə qarşı Cinayət Məcəlləsinin ciddi maddələrinə uyğun olaraq istintaq aparılır. Bu müzakirələrin gedişində Ramiz Mehdiyevin 2000-ci ilin əvvəllərində Azərbaycan dövlətinə qarşı fəaliyyətinə kəskin reaksiya verən və Moskvanın məkrli planını, məqsədini ifşa edən Fəzail Ağamalının birdən-birə həmin hadisədən 12 il sonra - əslində o məktub 2018-ci ildə yox, 2013-cü ildə, yubileyində yazılıb, təltifləri-zadları da var idi - yazdığı məktub yayılır. Mənə təəccüblü gəldi. Həmin dövrdə Ramiz Mehdiyevlə münasibətlərimiz niyə gərgin və kəskin oldu? Azərbaycan dövlətçiliyinin yad əllərə keçməməsi üçün. Dəfələrlə deyilib, bunu təkrarlamaq mənim üçün heç də xoş deyil, səhhətində yaranmış problemlərlə bağlı Ulu öndərimiz ölkədən kənardaydı, müalicə olunurdu. Onun komandasında kifayət qədər ciddi yer tutan Ramiz Mehdiyev Moskva ilə bərabər qarşıdan gələn prezident seçkisində, yəni 2003-cü ildə, bütün mənalarda özünü prezident hazırlayırdı. Həm Rusiya ilə, təbii ki, Rusiyanın müttəfiqi olan, Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsini heç cür həzm etməyən İranla birgə məkrli, xain bir plan hazırlamışdılar. Azərbaycanı Rusiyanın forpostuna çevirmək üçün Ramiz Mehdiyevi hakimiyyətə gətirmək istəyirdilər. Mən bu planı ifşa etdim. Düşünürəm ki, xalqımızın, dövlətimizin qarşısındakı bu vətəndaş mövqeyim mənim tərcümeyi-halımın ən şərəfli səhifələrindən biridir. O zaman mən İlham Əliyevlə bağlı sosial-siyasi araşdırmalarla geniş təbliğat qurmuşdum, onunla bağlı 2003-cü ilə qədər 2 cildlik kitab buraxdım. Orada İlham Əliyevin siyasətinin bütün tərəfləri öz əksini tapdı. Həmin kitablarda İlham Əliyevə bir daha öz əsərləri, çıxışları, fəaliyyəti ilə ictimai rəydə ona olan və mütləq əksəriyyəti özündə ehtiva edən münasibətlərin mənzərəsini yaratdım.

**- Ramiz Mehdiyevin planları ilə bağlı müvafiq qurumlara məlumat vermişdinizmi?**

- Məlumat açıq şəkildə bildirilirdi. "Neytral" qəzetində, eyni zamanda "Yeni Müsavat" qəzetlərində bu barədə fikirlərim dərc olunmuşdu.

**- Mətbuatı nəzərdə tutmurdum. İstintaqa məlumat vermişdinizmi?**

- Yox. Ancaq mətbuat vasitəsilə. Başqa xətlə mən hər hansı addım atmadan bunu ictimailəşdirdim, gündəliyə gətirdim. KİV-də, o cümlədən sizin çalışdığınız "Yeni Müsavat" qəzetində bir aydan çox bu məsələlər müzakirə olundu. Yəni bu xain plan deşifrə olundu, ictimai rəydə ifşa olundu.

**- Fəzail bəy, elə isə necə oldu, 2000-ci illərin əvvəllərində planlarından məlumatlı olduğunuz, dediyiniz kimi, ictimai rəydə ifşa etdiyiniz Ramiz Mehdiyevə illərdən sonra, 12 il fasilədən sonra belə bir təbrik məktubu ünvanladınız? Bunu necə başa düşmək olar?**

- Mən nə üçün təbrik etdim? Çünki 2001-ci ildən sonar, 2003-cü ildə o, öz simasını gizlədərək, İlham Əliyevin prezidentliyinə qarşı çıxmadı. Heç bir yazısı, addımı, hərəkəti, davranışı ilə İlham Əliyevin prezident seçilməsi prosesinin əleyhinə getmədi, özünü ifadə etmədi. Əksinə, yazdığı kitablarda, söylədiyi nitqlərdə, davranışlarında özünü Ulu öndərimizin siyasi xəttinə, İlham Əliyevə sədaqətli kimi təqdim edirdi. Mən də düşündüm ki, yəqin artıq düz yola gəlib, etdiklərindən peşmandır, niyyətlərindən də əl çəkib. Yəni 2001-ci ildən 2013-cü ilə qədər bu adam açıq şəkildə, mənim, vətəndaşlarımızın bildiyi şəkildə dövlətimizin əleyhinə getmədi. Sadəcə olaraq, aparatın rəhbəri kimi tapşırıqları yerinə yetirdi, özünün məkrli niyyətlərini içində gizlətməyi bacardı. Bu, bir də 2020-ci ildə ortaya çıxdı. Yəni Prezident Sərəncamı ilə aparat rəhbərliyindən gedəndən və AMEA prezidenti təyin ediləndən sonra bu məkrli plan yenidən qaynadı. Akademiyada, özünün ofisində, özünün komandasında bildiyi, güman etdiyi adamları yığırdı - istəyir vəzifədən gedənlər, istəyir vəzifədə olanlar - onlara tapşırıqlar verirdi, dövlət içində dövlət yaratmağa çalışırdı, yenə də özünün ambisiyalarını ortalığa qoyurdu.

**- O zaman siz yanıldığınızın fərqində oldunuzmu? 20 il əvvələ qayıtdınızmı?**

- Bəli, 20 il əvvələ qayıtdım. Mənim "Yeni Müsavat" qəzetində çox ciddi bir yazım dərc olundu, o yazı ciddi rezonans doğurdu. Mən orada artıq Ramiz Mehdiyevə qarşı dövlətin, cənab Prezidentin yanında olan, Heydər Əliyevin siyasi irsinə sədaqət nümayiş etdirən, ona sadiq olan insanlara müraciət etdim. Ramiz Mehdiyevə qarşı bütün ictimai rəydə, mətbuatda yenidən çıxış etməli olduq. Çünki bunun planlarını alt-üst etmək lazım idi. O yenə də özünün məkrli planlarını alt-üst etmək üçün, bu dəfə ola bilsin ki, başqa bir formada hakimiyyətə gəlmək üçün komandasını ətrafına yığıb, yenə də çox qapalı şəkildə, çoxlarının - söhbət siyasi cameədən, mətbuatdan gedir - duya bilməyəcəyi halda, müəyyən bir planı yenə yerinə yetirməyə çalışdı. Daha sonra pandemiya dövründə Azərbaycan qanunlarını təpik altına ataraq, toy təşkil elədi, oraya insanlar yığdı, bu da mətbuatda getdi. Bu da cəmiyyətdə birmənalı qarşılanmadı. Nəhayət, son hadisələr və onun haqqında cinayət işinin qaldırılması. Bəlli olan odur ki, bu tip insanlar öz niyyətlərini gizlədə bilib, maskalanıb, öz fəaliyyətini başqa cür qura bilir.

**- Fəzail bəy, Ramiz Mehdiyevə başqa təbrikləriniz varmı? Ola bilərmi bir az sonra onunla bağlı digər hansısa mətn də yayılsın?**

- Yox. Əslində bu da mənim yadımdan çıxmışdı. Bu təbrik olub. Ola bilsin ki, haradasa bir jurnalist sual verib, demişəm, bəli, dövlətə xidmət edir. Ola bilər. Bu, faktiki olaraq mənim gəlmiş olduğum - indi səhvdir, düzdür, o məsələnin başqa tərəfidir - budur ki, bu, İlham Əliyevin yanında olduğu halda, gözə görünməyən bir formada içindəki niyyətlərini gizlədib, açıq şəkildə cənab Prezidentin siyasətini kitablarında təqdir, təbliğ edən, onu yüksək qiymətləndirən kitab müəllifi kimi özünü təqdim edirdi, eyni zamanda aparat rəhbəri kimi tapşırıqları yerinə yetirirdi.

**- Əgər bu məsələlər ortaya çıxmasaydı, 90 illiyində də onu təbrik edəcəkdinizmi?**

- Yox. Daha niyə təbrik göndərəcəkdim. Mən fikirləşməmişdim ki, onu bir daha təbrik edəcəyəm. Cəmi bir dənə 2013-cü ildə təbrik olub, o da mənim yadımdan çıxmışdı. Hamı kimi mən də bir təbrik məktubu göndərdim.

**- Sizin adınızdan sosial mediada bəzi iddialar yayılır. Guya siz qızınıza, Milli Məclisin üzvü Günay Ağamalıya hansısa məsləhətlər vermisiniz və sair. Bu barədə nə deyə bilərsiniz?**

- Sual verilib, qızım da cavablandırıb ki, atam bu cür məsələləri evdə müzakirə etmirdi, bu da mətbuatda gedib. Mən hər zaman övladlarıma demişəm ki, dövlətə, Ulu öndərimizə, onun siyasi kursuna, siyasətinə sədaqətlə qulluq etmək lazımdır, daim Prezidentimiz İlham Əliyevin yanında olmaq lazımdır. Bu tövsiyələri vermişəm, o da mətbuata bu barədə bildirib. Mən ictimai rəydə kifayət qədər fəallıq göstərən partiya sədrlərindən biriyəm. Azərbaycan dövlətçiliyinə qarşı hər hansı məkrli plan, onu zəiflətməyə çalışan, Ulu öndərimizin siyasi irsinə, cənab Prezidentimizin həyata keçirmiş olduğu siyasətə qarşı çıxanları özüm üçün qırmızı xətt hesab edirəm, birmənalı şəkildə. Ona görə bu məqamlarda susmağı özümə qəbahət bilirəm. Həm də susmağı bu cür məkrli planları olanların yanında olmaq kimi dəyərləndirirəm. İnandığım, araşdırıb, həqiqəti üzə çıxartdığım o faktlar ki dövlətin əleyhinədir, dövlətçiliyimizi zəiflətmək məqsədi güdür, Rusiyanın, İranın maraqlarına xidmət edir, hər zaman bunlara qarşı durmuşam, bundan sonra da durmaqda davam edəcəyəm. Bu, mənim həyat yolumdur, birmənalı şəkildə dəyişilməz fəaliyyətimin başlıca prinsipial mövqeyidir. Bu məktubların yazılması da tamamilə mümkün olan bir şeydir. Mən özümə hansısa bir şəkildə haqq qazandırmaq niyyətindən uzağam, kim necə başa düşür-düşsün. Lakin o məktub mənim niyyətlərimə zərrə qədər kölgə sala bilməz. O məktub mənim siyasi fəaliyyətimə zərrə qədər zərər verə bilməz. Çünki o məktubun özündə belə, dövlətçiliyimizə ziyan vura biləcək bir kəlmə belə yoxdur. Varsa, bu gün bütün xalqımdan üzr istəməyə hazıram.



❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 190 (8800) 21 oktyabr 2025

# Bakının iki dostla bağlı gözləntisi - biri Markov...

## Azərbaycanın haqlı mövqeyini dəstəkləyən rusiyalı ictimai-siyasi xadimlərin təqibi dayandırılacaqmı?

**Azərbaycan-Rusiya münasibətlərində "soyuq savaş"ın bitməsi bir sıra istiqamətlərdə yumşalma gözləntisi yaradıb. Onlardan biri də Rusiya Ədliyyə Nazirliyi tərəfindən xarici agentlərin reyestrinə daxil edilən politoloq Sergey Markovla bağlıdır.**

Azərbaycana münasibətdə obyektiv təhlilləri ilə fərqlənən, Xankəndidə keçirilmiş Qlobal Media Forumunda iştirak etdikdən sonra bu siyahıya salınan Markovla bağlı indi qərarın dəyişməsi zərurəti var. Çünki onun xarici agent olduğunu təsdiqləyən hər hansı fakt da sübut kimi təqdim olunmayıb.

"Markov qeyri-məhdud sayda insana xarici agentlərin mesajlarının və materiallarının yaradılmasında və yayılmasında, həmçinin Rusiya Federasiyasının ərazisində fəaliyyəti arzuolunmaz olaraq tanınan xarici və beynəlxalq təşkilatların siyahısına daxil edilmiş təşkilatların mesajlarının və materiallarının yayılmasında iştirak edib. Bundan əlavə, o, xarici media və xarici agent tərəfindən təqdim olunan informasiya platformalarında respondent kimi iştirak edib. O, Rusiya Federasiyasının dövlət orqanlarının qəbul etdiyi qərarlar və onların yeritdiyi siyasət haqqında yalan məlumatlar yayıb", - deyə rəsmi məlumatda bildirilirdi.

Xatırladaq ki, 19 iyulda Xankəndidə keçirilən forumda Azərbaycan Prezidenti İlham Əliyev iştirakçıların suallarını cavablandırmış, Markov isə tədbirdən sonra verdiyi açıqlamada Prezident Əliyevi "müasir dövrün ən təcrübəli liderlərindən biri" adlandırmışdı: "Dünyada müharibədə qələbə qazanan, ərazi bütövlüyünü tam bərpa edən o qədər də çox dövlət yoxdur. Bir çox dünya liderləri bu qələbənin sirrini öyrənmək və bu təcrübəni mənimsəmək istəyərdilər".

O zaman "Kommersant"ın Rusiya prezident administrasiyasındakı mənbəsi də məlumatı təsdiqləmişdi. Mənbə bildirmişdi ki, Markovun xarici agentlərin reyestrinə salınması iyulda keçirilən forumla əlaqəlidir. Maraqlıdır ki, həmin forumda iştirak edən digər rusiyalı media nümayəndələri də təzyiqlərlə üzləşmişdilər. TASS-ın baş direktorunun birinci müavini Mixail Qusman tədbirdən sonra vəzifəsindən uzaqlaşdırılmışdı. Markov özünün Telegram kanalında bildirmişdi ki, ona qarşı hücumlar Rusiyanın düşmənləri və Putinin ətrafındakı siyasətçilər tərəfindən təşkil olunub.

Bəs münasibətlərin yaxşılaşması ilə müsbətə dəyişən nəsə olacaqmı?

**Deputat Arzuxan Əlizadə "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın haqlı mövqeyini dəstəkləyən rusiyalı siyasi ekspertlər, siyasətçilər, ictimai xadimlər, jurnalistlər xeyli vaxtdır haqsız təqiblərlə, aqressiv münasibətlə üz-üzə qalıb:** "Təəssüf ki, onların bəzilərini hətta xarici agent elan etdilər. Hesab edirəm ki, həmin insanlara qarşı bu münasibət dəyişməlidir. Rusiya Prezidenti Vladimir Putin Düşənbədə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdə bir sıra vədlər verdi, etiraflar etdi. Ancaq hələ ki Rusiya tərəfindən verilən vədlərlə bağlı əməli addımlar atılmayıb. Azərbaycan tərəfi gözləyir ki, verilən vədlər reallaşdırılsın. Rusiya Prezidentinin səsləndirdiyi mövqe və fikirlər təbii ki, münasibətlərə bir yumşaqlıq gətirib. Azərbaycan əvvəllər də bəyan etmişdi ki, biz qonşu dövlətlərlə, o cümlədən Rusiya ilə normal münasibətlərin müsbət məcrada davam etməsində maraqlıdır, yetər ki, qarşı tərəf də adekvat mövqe nümayiş etdirsin. Rusiya lideri vəd verib ki, münasibətlərin yaxşılaşması üçün gərəkən addımlar atılacaq. Azərbaycanın haqlı mövqeyini müdafiə edən, Azərbaycan-Rusiya münasibətlərinin yaxşı olmasını daim təbliğ edən rusiyalı siyasi ekspertlərə, ictimai xadimlərə münasibətin dəyişməsi də atılmalı addımlardan biridir. Bu istiqamətdə də gözləntilərimiz var".



Sergey Markov



Mixail Qusman

**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Xəyal Bəşirov bildirdi ki, Rusiya ilə Azərbaycan arasında uzun müddət Rusiyadan qaynaqlanan gərginliyin azaldılması istiqamətində Putin tərəfindən addım atıldı:** "Münasibətlərin gərgin vəziyyətə gəlib çıxmaması üçün əslində Azərbaycanın tələbləri də elə bu idi. Rusiya gərginliyin məhz özündən qaynaqlandığını anladı və Azərbaycanın tələblərinin haqlı olduğunu qəbul edirsə, təbii ki, bizim növbəti gözləntilərimiz gərginliyin fonunda atılmış bəzi yanlış addımların da düzəldilməsidir. Bunlardan biri də Azərbaycanın haqlı mövqeyini müdafiə edən, ədalətli mövqedə olan, Azərbaycana yaxınlığı ilə seçilən rusiyalı siyasi ekspertlərin, ictimai xadimlərin barəsində verilmiş ədalətsiz qərarların ləğvi, yumşaldılmasıdır. Eyni zamanda Azərbaycana qarşı təbliğat aparılması tendensiyası dayandırılmalıdır. Normal əməkdaşlıq münasibətlərinin qurulması istənilirsə, bu addımların atılması vacibdir. Sergey Markov kimi insanlar Rusiya-Azərbaycan münasibətlərinin həmişə yaxın olmasını, müsbət istiqamətdə inkişaf etməsini istəyən, buna çalışan insanlardır. Bu cür siyasi ekspertlərə qarşı təqiblər dayandırılmalıdır".

❑ **Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

# Paşinyan-kilsə savaşı pik həddə

## Erməni baş nazirə sui-qəsd riski artır



**Ermənistanda hakimiyyət-kilsə qarşıdurması davam edir. Ötən həftə daha bir neçə kilsə nümayəndəsinin həbs olunması gərginliyi xeyli artırıb. Artıq kilsənin özündə yoxlamalar başlanıb.**

Sirr deyil ki, erməni kilsəsi və radikal müxalifət hakimiyyətə qarşı vahid cəbhədən çıxış edir. Keçən həftəsonu onlar - Rusiya ilə sıx əlaqləri ilə tanınan, həbsdəki iş adamı Samvel Karapetyanın şəbəkəsi və erməni kilsəsinin nüfuzlu nümayəndələri İrəvanın mərkəzində birgə etiraz mitinqi də təşkil ediblər. Bu mitinqlərin davamlı olacağı gözlənilir.

"Kilsə sənədlərində heç bir yerdə katolikos vəzifəsini tutan şəxs və kilsənin eyni olduğu yazılmır. Keçmişdə bəzi yepiskoplar da cinayət məsuliyyətinə cəlb olunublar. Bundan sonra kilsə dağıldı? Xeyr, dağılmadı".

Bu barədə Ermənistan baş naziri Nikol Paşinyan bildirib.

Qeyd edək ki, oktyabrın 15-də Ermənistan Apostol Kilsəsi hüquq-mühafizə orqanları tərəfindən 13 din xadimi, o cümlədən Araqatsotn yeparxiyasının rəhbəri Mkrtıç Proşyanın saxlanıldığını açıqlamışdı. Artıq onlardan üçü barəsində həbs-qətimkan tədbiri seçilib. Din adamlarına qarşı açılan cinayət işi mitinqlərdə iştiraka təhrik etmə ittihamı ilə bağlıdır.

Daha əvvəl keşiş Baqrat Qalstanyan hakimiyyət çevrilişinə cəhdin təşkilinə görə həbs olunmuşdu.

Bəllidir ki, vaxtaşırı siyasi mübarizəyə qoşulan erməni Qriqoryan kilsəsi həm də terror yuvası kimi tanınır. Odur ki, sual yaranır: hakimiyyət-kilsə davası baş nazirə qarşı sui-qəsd ehtimalını gücləndirə bilərmi? Ümumiyyətlə, Paşinyanın bu davada əsas hədəfi nədir və ona nail ola biləcəkmi?

**Deputat Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Ermənistanda siyasi və dini güc mərkəzləri arasında illərdir davam edən qarşıdurma artıq daha açıq müstəviyə keçib:** "Görünür, Paşinyan hökuməti bu dəfə kilsəni siyasi sistemin real oyunçusu statusundan tamamilə məhrum etməyə qərar verib. Baş nazirin "katolikos və kilsə eyni deyil, kilsə hər hansı bir ruhani ilə məhdudlaşmır" bəyanatı, sadəcə, teoloji fikir deyil, açıq siyasi mesajdır. Bu mövqe ilə Paşinyan əsrlərdir Ermənistan cəmiyyətində möhkəmlənmiş dini-ideoloji təsiri sarsıtmaq, eyni zamanda kilsə ilə Rusiya arasında formalaşmış asılılıq zəncirini qırmaq niyyətini nümayiş etdirir. Çünki Ermənistan Apostol Kilsəsi təkcə dini institut deyil, həm də Moskva Patriarxiyası və Rusiya siyasi dairələri ilə sıx əlaqələri olan ideoloji mərkəzdir".

**Deputat qeyd etdi ki, son illərdə bu təsisat dini məbəddən çox hakimiyyət əleyhinə yönəlmiş siyasi platforma rolunu oynayır:** "Paşinyanın Qərbə inteqrasiya xətti, KTMT və Avrasiya İttifaqından uzaqlaşmaq istəyi, Rusiyanın təsirini azaltmaq cəhdləri kilsəni və onunla birləşmiş revanşçı müxalif qüvvələri hərəkətə gətirib. Məhz bu səbəbdən, kilsənin neytrallaşdırılması Paşinyan üçün dövlət suverenliyinin qorunması və yeni siyasi identitetin formalaşdırılması məsələsinə çevrilib. Kilsə və müxalifət alyansının yaranması da bu kontekstdə təsadüfi deyil. Oktyabrın əvvəlində rusiyayönlü oliqarx Samvel Karapetyanın şəbəkəsi ilə kilsə nümayəndələrinin İrəvanın mərkəzində birgə mitinq təşkil etməsini bu birliyin növbəti təzahürü hesab etmək olar. Karapetyan uzun illər Rusiya iqtisadi dairələri və xüsusi xidmət strukturları ilə əməkdaşlıq etmiş şəxs kimi tanınır. Onun təsir dairəsi həbsdə olsa belə genişdir və Paşinyan əleyhinə formalaşan koalisiyanın maliyyə dayaqlarından birini təşkil edir. Bu cəbhənin əsas məqsədi Paşinyanı zəiflətmək, ölkədə xaos yaratmaq və nəticədə hakimiyyət dəyişikliyi ssenarisini reallaşdırmaqdır".

**Onun fikrincə, Ermənistanda sabitliyin pozulması Moskva üçün təkcə lokal siyasi hadisə deyil, strateji planın tərkib hissəsidir:** "Rusiya Paşinyanın Qərbə yaxınlaşmasını dayandırmaq və Ermənistanı yenidən öz orbitinə qaytarmaq üçün daxili təxribat mexanizmlərindən istifadə edir. Beləliklə, hazırkı qarşıdurma həm ideoloji, həm də geosiyasi xarakter daşıyır".

**Deputat erməni baş nazir üçün həyati təhlükədən də söz açdı:** "Bu prosesin ən təhlükəli istiqaməti isə sui-qəsd ehtimalıdır. Paşinyanın siyasi kursu onu Rusiya və kilsə çevrələrinin açıq düşməninə çevirib. Keşiş Baqrat Qalstanyanın hakimiyyət çevrilişinə cəhd ittihamı ilə həbs olunması da bu qarşıdurmanın təhlükəli həddə çatdığını göstərir. Ermənistan tarixində dini və siyasi dairələrin birləşərək zorakı üsullara, terrora əl atdığı hadisələr az deyil. Rusiya xüsusi xidmətlərinin vaxtilə Ermənistanda rejim dəyişiklikləri üçün oxşar ssenariləri həyata keçirdiyi faktlar da məlumdur".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 190 (8800) 21 oktyabr 2025

# Türkiyə və Azərbaycana çirkin böhtan

## Revanşistlər İrəvanın Bakı və Ankara ilə normallaşma prosesinə qarşı son patronlarını istifadə edir - rəy

**Ermənistanda bəzi qüvvələr, iranşünaslar, türkoloqlar Nikol Paşinyan hökumətinin Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırma, sülh siyasətinə qarşı çıxır. Onlar müxtəlif təxribatçı açıqlamalarla əngəl olmağa çalışırlar.**



"Bakı-Xəbər" yazır ki, politoloq Stepan Danielyanın normallaşma prosesinə mane olmaq məqsədilə yazdığı məqalə də buna sübutdur. Danielyan iddia edir ki, Türkiyədə kilsələr ya dağıdılır, ya da məscidə çevrilir, bu ölkədə xristian irsinə qarşı guya hansısa basqılar var.

Türkiyəni İranla müqayisə edən Danielyan yazıb ki, İranda isə xristian mədəniyyətinə və kilsələrinə hörmətlə yanaşılır. Türkiyədə başqa xalqlara və başqa mədəniyyətlərə guya "nifrət var".

Türkiyəyə və Azərbaycana qarşı nifrətlə silahlanmış Danielyan kimiləri bu uğursuz müqayisəni aparmaqla, əslində özlərinin mahiyyətini açıb ortaya qoyurlar. Unudurlar ki, nə Türkiyədə, nə Azərbaycanda, nə də digər türk dövlətlərində xristian irsinə qarşı mənfi münasibət var. Azərbaycanda da, Türkiyədə də kifayət qədər xristian irsi nümunələri var və onlara dövlət qayğısı çox yüksək səviyyədədir. Əksinə, Ermənistanda və İranda türk irsinə qarşı soyqırımlar həyata keçirilib ki, bunu bilməyən yoxdur. İndiki Ermənistanda Azərbaycan irsinin darmadağın edildiyi, yer üzündən silindiyi faktdır. Danielyan bunları yaddan çıxarır və öz adlarını başqalarına qoyur.

Paşinyanın Bakı və Ankara ilə yaxınlaşma siyasətinə qarşı bu təbliğatın bir nəticəsi, təsiri ola bilərmi? Ermənistan iki türk dövləti ilə normallaşma prosesini yekunlaşdıra biləcəkmi, yoxsa aparılan belə çirkin kampaniya ermənilər ayağamı qaldıracaq?

"Yeni Müsavat"a danışan **deputat Azər Badamov** bildirdi ki, "əqrəbə yedirtsən bal ilə şəkər, yenə də məhsulu olacaq zəhər". Onun fikrincə, Nizami Gəncəvinin hikmətli sözləri Danielyan kimilər üçün deyilib: "Onlar regionumuza sülhün gəlməsindən, xalqların birgə yaşamasından narahat olanlardır. Çünki bu gün Azərbaycan, Türkiyə və Ermənistan arasında sülh və əməkdaşlıq təşəbbüsləri inkişaf etdiyi bir zamanda, müsəlman-xristian davasını təbliğ etmək ən azından öz xalqına düşmənçilikdən başqa bir şey deyil. Erməni icmaları, kilsələr, erməni mədəniyyəti sərbəst yaşayır və onlara bu işdə heç kim mane olmur. Hətta Türkiyəyə Ermənistandan minlərlə erməni qazanc dalınca gedir və öz rahat həyatlarını qururlar. Azərbaycanda da eynilə xristianlara qarşı heç bir ayrı-seçkilik yoxdur. Hətta Bakının mərkəzində erməni kilsəsi 5 mindən çox erməni ədəbiyyatı ilə bir yerdə qorunur. Azərbaycan öz ərazisində yaşayan bütün xalqlara onun dini və etnik məsubiyyətindən asıllı olmayaraq böyük hörmətlə yanaşır".

**Deputat qeyd etdi ki, məhz dövlətin dəstəyi ilə yenidən qurularaq bərpa edilmiş katolik, provaslav kilsələri və sinaqoqlar buna misaldır**: "Bəs Ermənistanda nə baş verib? Təbii ki, əhalinin böyük bir hissəsi olan azərbaycanlıları öz doğma yurdlarından güc yolu ilə qaçmasına məcbur edilərək yaşadıqları ərazilərdəki bütün dini etiqad yerləri, mədəni və tarixi irsi yerlə yeksan edən ermənilər deyilmi? Bu gün Danielyan Ermənistan ərazisində qalmış azərbaycanlılara məxsus bir dini abidəni və ya məscidi misal çəkə bilərmi? Xeyr. Çünki hər şey dağıdılıb və barbarlığa məruz qalıb. Hətta İrəvanın mərkəzindəki Göy məscid də farslaşdırılıb. Türklər və ermənilər arasındakı fərq budur".

**AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli** hesab edir ki, erməni tərəfin səhvi Azərbaycana sərf edir: "Ermənilər böyük əksəriyyət qismində sülh müqaviləsinə qarşı çıxsalar özlərinə ziyan edərlər və real fəlakətlə üzləşə bilərlər. Əslində bizə də bu ssenari sərf edir. Ermənilər səhv etsin və biz də bundan öz xeyrimizə yararlanaq. Hansısa danielyanları qoyaq bir tərəfə, xarici işlər naziri Mirzoyan Azərbaycanın konstitusiya dəyişikliyi şərtini qəbul etməyəcəklərindən danışır. Əgər Ermənistan bu cür davranışını davam etdirərsə, dediyi şərtlərdən və bəyanatlardan geri çəkilərsə, Azərbaycan tərəfi sahədə daha sərt addımlar atmaq məcburiyyətində qalacaq. Belə olan halda, yenidən hərbi toqquşma riski yarana bilər. Bu isə yuxarıda qeyd etdiyim kimi, Ermənistan üçün fəlakət ola bilər. Çünki hərbi qarşıdurma onları daha da çətin vəziyyətə salacaq. Ermənilərin nə iqtidarına, nə müxalifətinə, nə də heç birinə güvənmək olmaz".

**Ekspertin sözlərinə görə, onlar Vaşinqtonda bir söz deyir, sabah isə gəlib, həmin bəyanatı təkzib edirlər:** "İndi əsas məsələ odur ki, Azərbaycan tərəfi də aydın mövqe sərgiləsin. Mirzoyanın dediyi kimi, doğrudanmı Azərbaycan referendumu şərt kimi irəli sürməyib? Əvvəl də dediyim kimi, Azərbaycan Xarici İşlər Nazirliyindən bu barədə rəsmi açıqlama verilməli, məsələyə tam aydınlıq gətirilməlidir.

O ki qaldı revanşistlərin sülh müqaviləsinin qarşısını almaq cəhdlərinə, bu proses uzunmüddətli dövrdə Ermənistanda dövlətçilik institutlarının zəifləməsinə və daxili sabitliyin pozulmasına gətirib çıxara bilər. Azərbaycanın strateji maraqları kontekstində bu cür daxili destabilizasiya müəyyən üstünlüklər yarada bilər. Ermənistan daxilindəki siyasi qarışıqlıq və zəif liderlik bu prosesin Azərbaycanın şərtləri əsasında həyata keçirilməsi üçün əlverişli şərait yaradır. Buna görə də Azərbaycan öz milli maraqlarına uyğun olaraq, bu imkanlardan rasional şəkildə istifadə etməli və prosesin sürətlənməsinə çalışmalıdır. Azərbaycan üçün maraqlı Ermənistanın rus təsirindən çıxıb qərbyönümlü olması deyil, bu ölkənin daim qarşıdurma, qeyri-sabit vəziyyətdə qalmasıdır. Ermənistan daim Azərbaycan qarşısında zəif durumda qalmalıdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



## Azərbaycana 40 ədəd qırıcı satır - nəhəng anlaşma

**İsveçrədə yaşayan azərbaycanlı jurnalist Elbəyi Həsənli tərəfindən hazırlanan yazıdan irəli gələn məlumatlara əsasən, Pakistanla bağlanan müqavilə çərçivəsində 4.6 milyard dollar qarşılığında Azərbaycana 40 ədəd 4.5-ci nəsil "JF-17 Block III" qırıcı təyyarəsi satılacaq və dünən Pakistandan Bakıya növbəti partiya çatdırılıb.**

Musavat.com xəbər verir ki, məqalədə eyni zamanda ABŞ-nin nüfuzlu nəşri "The National Interest"də dərc edilmiş "Why Azerbaijan Is the Next Front of US-China Competition" başlıqlı yazıya istinad edilir.

Məqalə və təhlil Prezident İlham Əliyevin son dövrlərdəki diplomatiyası, regional geosiyasətdə yaranmış dəyişikliklər və ABŞ-Çin rəqabətinin Azərbaycana təsiri barədə mühüm məqamları önə çəkir.

"The National Interest" məqaləsində vurğulanır ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan regionda dominant mövqeyə yüksəlib. Rusiya və İranın zəifləməsi, həmçinin Azərbaycanın artan rolu ABŞ-Çin münasibətlərində yeni hesablamalar doğurur. Nəşrdə xüsusi olaraq qeyd olunur ki, hələ də qüvvədə saxlanılan 907-ci düzəliş ABŞ-nin Avrasiya siyasətində maneə mənbəyi olaraq qalır və dərhal ləğv edilməlidir.

Məqalə iddia edir ki, "907-ci düzəliş"in saxlanması Rusiya, İran və Çinin regiondakı strateji maraqlarına təsadüfi yardım edir.

Elbəyi Həsənli də öz yazısında "907-ci düzəliş"in indiki məqamda ABŞ-nin Cənubi Qafqazdakı maraqlarına ciddi zərər vurduğunu qeyd edir.

Jurnalistin fikrincə, avqustda Vaşinqtonda keçirilən Əliyev-Paşinyan görüşündən sonra 907-ci düzəlişin yenidən dondurulması həmin sənədin ləğvi üçün yaradılmış daha əlverişli siyasi pəncərə olduğunu göstərir. Həsənli yazır ki, "The National Interest"in bu mövqeyi ABŞ siyasətində ümidverici siqnal yaradır.

Məqalənin vacib məqamlarından biri də budur: Azərbaycanın aldığı "JF-17" qırıcıları texniki olaraq Pakistan istehsalı olsa da, layihə Çinin lisenziyası və texnologiyası əsasında həyata keçirilir.

"The National Interest" iddia edir ki, əslində bu qırıcılar Çin mənşəlidir və Pekin Pakistan üzərindən regiona təsirini genişləndirmək üçün bu tranzakta razılıq verib.

Həsənli yazır ki, Pakistanın "JF-17"ləri istənilən ölkəyə satması üçün rəsmi Pekin tərəfindən razılıq verilməlidir - yəni bu transferin arxasında Çin siyasi və strateji hesablamaları dayanır.

Beləliklə, Bakı-Pekin-İslamabad üçbucağı enerji, ticarət və hərbi-texniki sahələrdə yeni dinamika yaradıb.

Nə baş verir və bu nə deməkdir?

"The National Interest"in diqqət çəkdiyi məqamlar bir neçə əsas nəticəyə işarə edir:

- Azərbaycanın strateji yeri Cənubi Qafqazda yalnız coğrafi deyil, həm də geosiyasi prioritet kimi yenidən qiymətləndirilir; bu, ABŞ və Çin üçün yeni rəqabət meydanı yaradır.
- Hərbi-texniki əməkdaşlıq (Pakistan vasitəsilə alınan "JF-17"lər) Pekinin regiondakı təsir imkanlarını gücləndirə bilər və bu, Vaşinqton üçün narahatlıq doğurur.
- "907-ci düzəliş"in taleyi - ABŞ-nin region siyasətindəki çevikliyini şərtləndirən vacib elementdir; düzəlişin saxlanması və ya ləğvi ABŞ-Azərbaycan əlaqələrinin gələcək məzmununa birbaşa təsir edəcək.
- Diplomatik yaxınlaşmalar - Prezident İlham Əliyevin Pekinə iki dəfə səfəri və Vaşinqton görüşləri göstərir ki, Bakı balans siyasətini aktiv şəkildə aparır və hər iki güc bloku ilə münasibətləri inkişaf etdirir.

Həsənli yazısında qeyd edir ki, ABŞ-Çin rəqabətinin Azərbaycana yönəlməsi bölgədə yeni risk və imkanlar yaradır. Bir tərəfdən, Azərbaycanın həm Qərb, həm də Çin-Pakistan xətti ilə əlaqələrinin genişlənməsi investisiya və müdafiə imkanlarını artırır; digər tərəfdən isə belə manevrlər Moskva və Tehran kimi regional aktorların reaksiyasını gücləndirə bilər.

Bundan əlavə, hərbi texnologiyanın mənbəyi və nəzarəti məsələləri - xüsusən də Çin lisenziyası ilə istehsal olunan platformaların üçüncü ölkələrə transferi - həm hüquqi, həm də siyasi aspektlərdən diqqətlə qiymətləndirilməlidir.

"The National Interest"dəki məqalə göstərir ki, Azərbaycan artıq Cənubi Qafqazda təkcə regional oyunçu deyil, həm də qlobal güclərin strateji hesablamalarında əhəmiyyətli rol oynayan aktordur. "JF-17" qırıcılarının alınması və "907-ci düzəliş" ətrafında gedən müzakirələr bu reallığı daha aydın nümayiş etdirir.

YENİ MÜSAVAT
N 190 (8800) 21 oktyabr 2025



# Beyləqan vəziyyət

Zamin HACI
zaminhaci@gmail.com

**Heyvanlar arasında dabaq xəstəliyi yayılıb, nəticədə ətin qiyməti 2 manat ucuzlaşıb. Bu vəziyyətin el arasında hələ qədimdən təsviri vardır: "Əgər kasıb toyuğu kəsirsə, ya toyuq xəstədir, ya da kasıb".**

Əlbəttə, bunlar hamısı kənd təsərrüfatına dövlət qayğısının bariz nümunəsidir. Bir neçə il də xarici təhlükələri qabaqlamaq üçün sərhədlərimizi bağlı saxlasaq heyvanların koronavirusa, qarayara, dəli dana virusu, donuz, SPİD və sairə xəstəliklərə yoluxma ehtimalı artacaqdır, nəticədə ətin qiyməti AXC-Müsavat dövründəki qiymətlərə yaxınlaşacaqdır. Ondan sonra al antrikotu, vur şişə.

Qara zarafat bir yana qalsın, doğrudan da, axı bu "əlaqədar orqanlar" hara baxır? Dabağın yayılma arealına baxsaq görürük əsasən sərhəd rayonlarıdır: Lənkəran-Astara, Qazax-Ağstafa, Qax-Balakən, İmişli-Beyləqan, Xaçmaz və sairə. Deməli, böyük şübhə var ki, bu xəstəliyin virusları xaricdən gəlib. (Sözgəlişi, Zaqatala-Balakən bölgəsində fındıq bağlarını məhv eləyən, camaatı zibilə salan və hazırda fındığın qiymətini bahalaşdıran pis qoxulu böcəyin də Gürcüstandan gəldiyi deyilmişdi). Bəs o zaman epizootiya və epifitotiyaya məsul idarələr hansı işlə məşğuldur? Qurdalasan onlarla, yüzlərlə tip heyvan və bitki mənşəli viruslar, zərərvericilərlə mübarizə tədbirləri adı altında havayı maaş alır. Bunun da üzərinə gəl qida təhlükəsizliyi üzrə "çalışan" nəhəng aparatın soyğunçu dəstələrini...

Bir zamanlar əlaqədar orqanlar xalqa gözaydınlığı verirdilər, deyirdilər bizim heyvanların əti dünyada brend kimi tanınır, inşallah, Ərəb körfəz ölkələrinə, Avropaya, nə bilim, Çinə-Yapona ixrac edəcəyik, şeyxlər Beyləqan quzusu alacaq, Azərbaycan xalqının cibi dollardan dombalıb cırılacaq. Bağ belə, bostan elə... Nəticədə isə bu gün Monqolustandan dana bağırsağı, Argentinadan qoyun quyruğu, Hindistandan qoca camışların ətini idxal edirik. Hətta toyuq-broyler işini guya tam özümüz təmin etməyə başlamışdıq, ancaq bu yay dükanlarda xarici broyler məhsulları yenidən peyda olmağa başladı.

Əlbəttə, nigarançılığa əsas yoxdur. Əlaqədar orqanlar hər şeyi bizim əvəzimizdən fikirləşiblər. Məsələn, artıq xalqımızın əsəblərini sakitləşdirmək üçün Şamaxıda yoqa festivalı keçirilir. Camaat nəfəsini içinə alıb, bardaş qurub oturur. Burnunu tut, iy hiss eləmə, gözünü yum, nirvanaya gir. Ya da təpəsi üstdə dayanıb arıq inəklərin əmcəyinə tamaşa et. Sonrakı mərhələdə mıxın üstünə oturmaq, ağızdan alov çıxartmaq, zurna çalıb ilan oynatmaq kimi təmrinlərə keçəcəyik. Hindistanlılar ət yemir, inəyə səcdə edir, ölmürlər ki? Hələ əksinə, Ayın qütbünə peyk göndərmişdilər. Biz də ət yeməyi dayandıraq. Bəlkə bu dabaq xəstəliyi uca Şivanın xalqımıza xəbərdarlığıdır. Ki, ət yeməyi dayandırın, sizi Aya göndərim, orada Ay-ulduzlu bayrağınızı qaldırın, xoşbəxt olun, mahnı oxuyun, kino çəkin, çəmənlikdə dombalaq aşın, sevişin, ildırım çaxıb yağış yağanda da uşaq anadan olsun və sairə.

Oktyabrın 14-də Beyləqandan gələn xəbəri oxuyanda keçirdiyim hisslər isə heç yadımdan çıxmır. Təsəvvür edin, orada Ümumdünya Statistika Günü qeyd olunmuşdu! Bekarçılığın miqyasına baxın... Sitat: "Beyləqan İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, RİH başçısının müavinləri, aparatın əməkdaşları, rayon Statistika İdarəsinin rəhbərliyi və kollektivi, idarə və müəssisə əməkdaşları tədbirdə iştirak ediblər. Tədbiri RİH başçısı Ə.Əzizov giriş nitqi ilə açaraq Ümumdünya Statistika Gününün əhəmiyyətindən danışıb".

Hərəsinin əlinə bir çomaq verib Beyləqan quzusu istehsalına yönəltmək lazım idi... Bəlkə o zaman statistika idarəsi də uydurma ilə qazan doldurmaqdan əl çəkərdi. Rayonda dabaq yayılıb, bunlar isə statistika bayramı keçirdir. Halbuki Yoqa Festivalı da keçirə bilərdilər. Yoqada ən tanınmış pozisiyonlardan biri elə "Beyləqan vəziyyət" adlanır - Afaq xanımın məşhur personajı demişkən...



# İrəvandan Bakıya həddi aşan ittiham - reaksiya

## Azərbaycan üçüncü ölkənin ordusunu Zəngəzur dəhlizinə yerləşdirmək istəyib? - iki rəy

**"Bizdə belə təəssürat yaranıb ki, aylarla və illərlə davam edən danışıqlarda Azərbaycan tərəfi bu əraziyə (Qərbi Zəngəzur - red.) hansısa ekstraterritorial dəhliz əlamətləri verməyə çalışıb".**

Bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ötən həftəsonu Almaniyanın "Deutsche elle" nəşrinə müsahibəsində deyib.

"Məsələn, Azərbaycan üçüncü ölkənin silahlı qüvvələrinin bu dəmir yolunda yerləşdirilməsini tələb edirdi. Yadımdadır ki, onlar Rusiya qoşunlarının dəmir yolu boyunca yerləşdirilməsindən danışırdılar. Bu, təbii ki, bizim üçün qəbuledilməz idi. Heç bir dəhliz söhbəti yoxdur, "Beynəlxalq sülh və rifah üçün Tramp marşrutu" var", - o qeyd edib.

Lakin Mirzoyan ən azından bunu unudur ki, Ağ Evdə imzalanan birgə bəyannamədə Naxçıvana maneəsiz keçid ifadəsi yer alıb. Bu da elə dəhliz məntiqi deməkdir.

Baş nazir Nikol Paşinyan isə bu arada bəyan edib ki, Ermənistan və ABŞ arasında "Tramp Marşrutu Layihəsi" üzrə danışıqlar beynəlxalq hadisələrlə əlaqədar ləngiyib. "Avqustun 8-də biz Vaşinqtonda ABŞ ilə razılığa gəldik. Daha sonra prezident Donald Tramp və onun administrasiyasının bilavasitə iştirak etdiyi Ukrayna və Yaxın Şərq ətrafında gərginlik yarandı. Eyni komanda TRIPP layihəsi üzərində işləyir, ona görə də bu hallar, şübhəsiz ki, prosesin sürətinə təsir edir", - Paşinyan bildirib. Onun sözlərinə görə, hazırda layihə məzmunun hazırlanması mərhələsindədir. "Biz layihənin məzmunu üzərində işləyirik. Müxtəlif komponentlər masa üzərindədir və onlar vahid sənəddə birləşdiriləcək. Bu, istənilən iri layihə üçün normal iş prosesidir", - hökumət başçısı əlavə edib.

Həm Mirzoyan, həm də Paşinyan nəyə işarə vurur? Zəngəzur dəhlizi gecikə bilərmi? Yaxud Bakı gerçəkdənmi dəmir yolu boyu rus hərbçilərinin yerləşməsində israr edib? Hərçənd 10 noyabr (2020) üçtərəfli sənədin 9-cu bəndinə görə, dəhlizin məhz Rusiyanın nəzarətində olması yer alırdı. Bu bənd qüvvədən düşdümü, yoxsa...

**Professor Qabil Hüseynli** "Yeni Müsavat"a bildirib ki, Mirzoyan Azərbaycana şər atır və baş nazir Paşinyanın 5 il əvvəl imza atıb razılaşdığı faktı indi təhrif edir. Onun sözlərinə görə, Rusiya Federal Təhlükəsizlik Xidmətinin Zəngəzur dəhlizinə yerləşməsinə o zaman Paşinyan razılıq vermişdi və 9-cu bənddə göstərilib: "Bu ayrı məsələdir ki, Ermənistan üçtərəfli sənəddən imtina edib. Paşinyan 10 noyabr sənədinin elə 10 noyabrda qaldığını açıqlayıb. Biz də buna etiraz etmirik. Azərbaycan üçtərəfli razılaşmanın əsas bəndlərini özü həyata keçirdi, Rusiya və Ermənistan yerinə yetirmədi. Bizim üçün vacib olan dəhlizin açılmasıdır. İrəvan bunu kimin nəzarəti altında həyata keçirəcəksə, öz işidir. Azərbaycandan Azərbaycana keçidin təmin olunması vacibdir. Əgər Amerika şirkətinin bölgəyə yerləşməsinə razılıq verilibsə, bu da Ermənistanın öz seçimidir. Yəni Rusiya və ABŞ arasında ikinci üstün tutulub. Ona görə də Mirzoyan bizi şərləyə bilməz ki, guya Azərbaycan Zəngəzur dəhlizinə rus qoşunları yerləşdirmək istəyib. Bu, öz məsuliyyətini başqasının üzərinə atmaqdır. O zaman Paşinyan qol çəkib, razılıq verməyəydi".

**Professor dəhlizin reallaşmasının gecikməsinə gəlincə, bu məsələdə geosiyasi faktorları nəzərə almağı vacib sayır. Onun sözlərinə görə, ABŞ bütün hallarda dəhlizin işə düşməsinə kömək edəcək**: "Bu yaxınlarda amerikalı nümayəndələr Cənubi Qafqaza səfər etmişdi və işin texniki detalları araşdırılır. Zəngəzur koridoru həm siyasi, həm iqtisadi, həm də texniki-logistik layihədir. Bu qlobal bir proyektdir və Orta dəhlizin bir parçasıdır. Ona görə də açılmaması mümkün deyil. Sadəcə, geosiyasi amillər təsir edir və Paşinyanın da söylədiklərində həqiqət payı var".

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli** güman edir ki, dəhlizlə bağlı ciddi əngəl yoxdur, sadəcə, Rusiyanın da maraqlarının nəzərə alınması müzakirə edilə bilər. Onun fikrincə, Moskva dəhlizə nəzarəti itirdiyini qəbul etsə də, orada iştirak payını gözləyir və bu məsələni Tramp hakimiyyəti ilə müzakirə etməsi mümkündür: "Ermənistan da Rusiyanın bu yoldan istifadə edə biləcəyini söyləyib. Yeni dəmir yolu ilə yüklər Azərbaycandan keçməklə Rusiyaya daşınacaq. Ümumiyyətlə, Rusiya və İran bu dəhlizdən faydalana bilər. Amma nəzarət Amerikada olacaq".

**Partiya rəsmisi dəhlizə rus qoşunlarının yerləşdirilməsinə 5 il əvvəl Ermənistanın razılıq verdiyini xatırladıb və Mirzoyanın bu məsələdə yalan danışdığını vurğulayıb:** "Mirzoyanın bu quru böhtanı göz qabağındadır. Paşinyan sənədə qol çəkəndə görmürdü ki, dəhlizə rus hərbçiləri yerləşəcək? İkincisi, erməni mediası blef edir və saxta xəbərlər tirajlayırdı ki, Azərbaycan Ordusu guya dəhlizə girəcək, zorla koridoru açacaq, sonra Rusiyaya təhvil verəcək. Bəs nə oldu, Mirzoyan? Bu da yalan çıxdı. Ümumiyyətlə, Ermənistan dəhliz məsələsində hər iki qərarı özü verib. Əvvəlcə rusa, sonra amerikalıya təhvil verib. Bu da İrəvanın "iki stulda əyləşmək" siyasətindən irəli gəlir.

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**



# Xüsusi təyinatlılar Qukasyanın kabinetinə girdilər

**Ermənistan polisinin xüsusi təyinatlıları Gümrü meriyasında əməliyyat aparıblar. Musavat.com xəbər verir ki, əməliyyat çərçivəsində meriyanın bir neçə əməkdaşı saxlanılıb.**

Məlumata görə, Ermənistan Korrupsiyaya qarşı Mübarizə Komitəsində araşdırılan iş çərçivəsində Gümrü meriyasında Daxili İşlər Nazirliyinin Polis İdarəsi ilə birgə istintaq aparılır.

Xatırladaq ki, hələ sentyabr ayında Gümrü şəhərinin meri Vardan Qukasyanın həbs oluna biləcəyi barədə məlumat yayılmışdı. Baş nazir Nikol Paşinyanın müvafiq qurumlara Qukasyanla bağlı araşdırma aparmaq əmri verdiyi bildirilmişdi.

Məlumata görə, Vardan Qukasyan apreldə meriyaya keçirilən seçkilərdə saxtakarlığa əl ataraq qalib gəlib. Həmçinin Paşinyan onu korrupsiyada ittiham edib. Vardan Qukasyan bundan əvvəl Ermənistanı Rusiya ilə "İttifaq Dövləti"ndə birləşməyə çağırmışdı.

YENİ MÜSAVAT
N 190 (8800) 21 oktyabr 2025

# Amerikalı komandanı Bakıya gətirən səbəb

## Vaşinqtonla strateji tərəfdaşlıqda yeni səhifə açılır, ABŞ Azərbaycanı dənizdə gücləndirir



**Xəbər verildiyi kimi, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 18-də ABŞ Mərkəzi Komandanlığının komandanı və Hərbi Dəniz Qüvvələrinin admiralı Bred Kuperi qəbul edib. Söhbət zamanı son dövrlərdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin inkişafı məmnunluqla qeyd edilib, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.**

Admiralla görüşdə xarici işlər naziri Ceyhun Bayramov və müdafiə naziri Zakir Həsənovla bərabər Xarici Kəşfiyyat Xidmətinin rəisi Orxan Sultanov da iştirak edib.

Sonra admiralla müdafiə naziri ayrılıqda görüşüb. Z.Həsənov ikitərəfli əməkdaşlığın müxtəlif istiqamətləri üzrə həyata keçirilən tədbirlərdən və mövcud əlaqələrdən məmnunluq ifadə edib. B.Kuper isə öz növbəsində səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, qarşılıqlı səfərlərin əlaqələrimizin daha da güclənməsinə faydalarını vurğulayıb. Azərbaycan Ordusunun hərbi qulluqçularının Əfqanıstandakı "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasına verdiyi töhfəyə görə minnətdarlığını bildirən qonaq əməkdaşlığımızın inkişaf etdirilməsinin zəruriliyini diqqətə çatdırıb. Sonda Azərbaycanla ABŞ arasında hərbi əməkdaşlığın yeni perspektivləri müzakirə olunub.

"Azərbaycanla ABŞ arasında əməkdaşlıqda mühüm məqam ondan ibarətdir ki, tərəflər hərbi sahədə əməkdaşlıq qururlar".

Bunu ABŞ Prezidenti Donald Tramp Vaşinqtonda Azərbaycan və Ermənistan liderləri ilə görüşdə çıxışı zamanı demişdi. Sirr deyil ki, Trampın Ağ Evə qayıdışı ilə Azərbaycanla ABŞ arasında əlaqələr yüksələn xətlə inkişaf etməyə başlayıb. Bu, hərbi sferada da özünü göstərməkdədir. Həmçinin bədnam "907-ci düzəliş"in qüvvəsi təzədən dayandırılıb.

Bəs hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığımız hara kimi dərinləşə bilər? Amerikalı admiral Bakıya hansı mesajı gətirmişdi?

**Hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan Prezidentinin orduya diqqəti çox yüksək səviyyədədir, dünyanın ən müasir silahlı qüvvələri səviyyəsində olması üçün çalışır: "Ordunun güclənməsi, döyüş qabiliyyətinin yüksək olması, regionda liderliyi, ümumiyyətlə, dünya orduları sırasında gücünə görə ən ön sıralarda yer alması istiqamətində addımlar davamlı şəkildə atılır. Ordumuz yeni sistemə keçib, Türkiyə modeli qurulur və NATO dövlətlərinin hərbi strukturunu tətbiq etmişik. Köhnə sovet sistemi Azərbaycan Ordusunda artıq tətbiq edilmir və gələcəkdə də edilməyəcək".

**Hərbi ekspert qeyd etdi ki, ordumuzun nizamnamələri də yaxın gələcəkdə NATO nizamnaməsinə uyğunlaşdırılacaq:** "Çünki hazırkı nizamnamə köhnə sovet ordusundan qalma nizamnamələr əsasında formalaşdırılıb. Bilirsiniz ki, ordumuzun 4 nizamnaməsi var. Bunların əsasında ordu fəaliyyət göstərir. Düzdür, həmin nizamnamələrə zaman-zaman xeyli dəyişikliklər etmişik. Ancaq gələcəkdə dəyişiklik tamamilə olacaq. ABŞ-Azərbaycan münasibətlərinin yaxşılaşması, sıxlaşması hərbi əməkdaşlıq sahəsinə də müsbət impulslar verməkdədir. Hərbi əlaqələrin inkişaf etməyə başlaması müşahidə olunur. Təsadüfi deyil ki, Azərbaycanın dövlət başçısı ABŞ-nin Mərkəzi Komandanlığının komandanı və hərbi dəniz qüvvələri admiralı Bred Kuperi qəbul edib. Kuperin Azərbaycan səfəri çox məhsuldar və vacib səfər olub. Azərbaycan da dəniz sərhədi olan bir dövlətdir. Bizim həm Rusiya, həm İran, həm Qazaxıstan, həm də Türkmənistanla dəniz sərhədimiz var. Dörd ölkə ilə dəniz sərhədi olan dövlətin ABŞ kimi dünyanın bir nömrəli ordusuna sahib ölkə ilə bu istiqamətdə əməkdaşlığı tamamilə təbii və zəruridir. Yəqin ki, yeni FLOTumuzun qurulması istiqamətində təkliflər, addımlar ola bilər. Yəni Azərbaycan hərbi dəniz qüvvələri Xəzər dənizində vacib rol oynayan faktorlardandır".

**Onun fikrincə, bunu Pentaqon da bilir və Azərbaycan hərbi dəniz qüvvələrinin inkişafında maraqlı olduqları cənab Kuperin səfəri və verdiyi açıqlamalardan bir daha təsdiqləndi:** "Kpurerin səfəri və Bakıda keçirdiyi ən yüksək səviyyəli görüşlər həm də digər dövlətlərə bir mesaj xarakterli idi. Bu səfərlə bəyan edilmiş oldu ki, ABŞ Azərbaycanla hərbi sahədə, o cümlədən hərbi dəniz qüvvələrinin gücləndirilməsi istiqamətində əməkdaşlığı genişləndirməkdə qərarlıdır".

**Hərbi ekspert vurğuladı ki, ABŞ Azərbaycanı regionda güclü dövlət kimi görür, qəbul edir:** "Vaşinqton Azərbaycanı özünün strateji tərəfdaşı olaraq qəbul edir. Strateji tərəfdaşın ordusunun daha da güclənməsində isə təbii ki, Amerika maraqlı olmalıdır. Prosesə bu prizmadan da yanaşmaq lazımdır. Hərbi, hərbi-texniki istiqamətlərdə əməkdaşlıq yəqin ki, bundan sonrakı mərhələdə daha da gücləndiriləcək. Azərbaycan Amerika üçün çox vacib regionda yerləşir. Vaşinqtonun Azərbaycanla hərbi sahədə əməkdaşlığa önəm verməsində bu amil də öz sözünü deyir. Dünyada həm Rusiya, həm də İranla quru sərhədi olan yeganə ölkə Azərbaycandır. Eləcə də, dediyimiz kimi, Azərbaycanın Rusiya və İranla dəniz sərhədləri də var. Bu faktorlar da ABŞ-ni Azərbaycana hərbi sahədə yüksək səviyyədə dəstək verməyə təbii olaraq istiqamətləndirir. Şübhəsiz ki, ABŞ-nin ordusu Azərbaycan ərazisində yerləşdirilməyəcək. ABŞ son beş ildə müharibədə və antiterror əməliyyatlarında yüksək performans, yüksək nəticələr nümayiş etdirmiş Azərbaycan Ordusunun daha da güclənməsinə dəstək verəcək. Admiral Kuperin səfəri də bu baxımdan çox böyük əhəmiyyət kəsb edir. Gələcəkdə bu cür səfərlər sıxlaşacaq".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



# Elxan Şahinoğlu: "II Priqojin təhlükəsi var"

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu Teleqraf-ın suallarını cavablandırıb. O bildirib ki, Ukraynanın indiki halda itirilmiş torpaqları geri qaytarması çətindir: "Amma heç olmasa atəşkəs olsun tələbləri səslənir. Rusiya Prezidenti Vladimir Putin isə atəşkəslə razılaşmır".**

Politoloqun fikrincə, Rusiya prezidenti mümkün olmayan tələblər irəli sürür: "O iddia edir ki, Rusiyanın Ukrayna ərazisində işğal etdiyi ərazilər tanınsın və işğal etmədikləri ərazilər də ona verilsin. Sözsüz ki, özünə hörmət edən dövlət, o cümlədən Ukrayna bu şərtləri icra etməz. Zelenski də bundan imtina edir".

E.Şahinoğlu qeyd edib ki, Budapeştdəki görüşdən nəticə əldə ediləcəyinə heç kim zəmanət verə bilməz, faktiki olaraq, Alyaska görüşü nəticəsiz qaldı: "Putin güzəşt kimi Ukraynanın Zaporoje, Xerson kimi tam işğal etmədiyi ərazilərdən imtina etməyə hazır olduğunu bildirir. Bu zaman Rusiyanın Ukrayna ərazilərini özünə birləşdirməsi ilə bağlı keçirmiş olduğu (Donetsk, Zaporoje, Luqansk, Xerson) referendumla bağlı öz cəmiyyətinə izahat verməsi lazım olacaq. Rusiyanın işğal etdiyi Donetsk və Zaporojenin bir hissəsini geri qaytaracağı sualı açıq qalır. Bu, sadəcə, Rusiyanın vaxt uzatması ilə bağlıdır.

**Onun fikrincə, Putin dalana dirənib:** "Rusiya cəmiyyətində müharibənin uzanması və nəticələri ilə bağlı narazılıqlar başlayıb. Rusların normal həyat şərtləri pozulur. Artıq ölkədə yanacaqdoldurma məntəqələrində növbələr yaranıb, Ukrayna dronları rusların evlərinin yanında partlayır. Ona görə də Putin bu durumu cəmiyyətə izah etməlidir. Nə qədər təsir olsa da, Kremldə də bu barədə düşünənlər var. Ona görə də Priqojin ssenarisinin (Yevgeni Priqojin - "Vaqner" özəl hərbi şirkətinin rəhbəri idi. 2023-cü ildə üsyana qalxmışdı) Rusiyada təkrarlanması ehtimalı da güclənir. O, Rusiya-Ukrayna müharibəsinin düzgün olmadığına görə qiyama qalxmışdı. Sonradan Priqojin aradan götürülmüşdü. Amma kim zəmanət verə bilər ki, Kremldə yenidən Priqojin kimi biri peyda olmayacaq".



# İsrail Trampa "atəş" açdı

**İsrail ordusu yenidən Qəzza zolağında yerləşən bir sıra hədəflərə qarşı hava zərbələri endirib. Bu, israilli hərbçilərə hücum edildiyinə dair iddialar yayılandan sonra baş verib.**

İsrail ordusu hava hücumlarının əsasən Qəzzanın cənub və mərkəzi hissəsində yerləşən silah anbarlarına, yeraltı tunellərə qarşı yönəldiyini iddia edib.

Ancaq yenə mülki əhalinin yaşadığı yerləri bombalayıb. Fələstin dövlət orqanlarının bildirdiyinə görə, hava zərbələri nəticəsində azı 18, bəzi məlumatlara əsasən isə 29 nəfər həyatını itirib. Ölənlər arasında qadın və uşaqların da olduğu qeyd olunur.

Hadisələr fonunda İsrail Qəzza zolağına humanitar yardımın çatdırılmasını müvəqqəti dayandırıb. Bu qərar İsraillə HƏMAS arasında əldə olunmuş atəşkəs rejiminin pozulması ilə bağlı yayılan xəbərlərdən sonra verilib.

Eyni zamanda Qəzzanı Misirlə birləşdirən Rəfah keçid məntəqəsi də bağlı olaraq qalır. Rəsmi mənbələr bildirir ki, keçidin yenidən açılması gələn həftənin əvvəlində tərəflərin razılaşmaya sadiqliyindən asılı olaraq nəzərdən keçiriləcək.

YENİ MÜSAVAT
N 190 (8800) 21 oktyabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

# Qələbənin üçüncü paradı - 5 illiyə hazırlıq gedir

## Azərbaycan təkcə hərbi üstünlüyünü deyil, həm də siyasi iradəsini təxribatçı qüvvələrə nümayiş etdirəcək

**Xəbər verildiyi kimi, Bakıda Vətən müharibəsində qazanılan qələbənin 5-ci ildönümünə həsr edilmiş parad keçiriləcək. Parad noyabrın 8-də paytaxtın Azadlıq meydanında təşkil olunacaq. "Yeni Müsavat" bildirir ki, artıq parada hazırlıq işlərinə başlanılıb və növbəti Zəfər paradı olacaq. Xatırladaq ki, 2020-ci il dekabrın 10-da Bakıda Azadlıq meydanında Vətən müharibəsində qələbə şərəfinə Zəfər paradı keçirilib. 2023-cü il noyabrın 8-də isə Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad olub. Bu dəfə isə qələbənin beş illiyi ilə bağlı üçüncü parad keçiriləcək.**

Parad ilk növbədə Azərbaycanın ərazi bütövlüyünün, dövlət suverenliyinin bərpasını, uzun illər Xankəndidə yuva qurmuş erməni separatizminin kökünün kəsildiyini bütün dünyaya bir daha nümayiş etdirəcək. Eyni zamanda dövlətin suveren hüquqlarını tam şəkildə həyata keçirdiyini və bu ərazilərin Azərbaycanın ayrılmaz hissəsi olduğunu göstərəcək.

Qələbə paradları Azərbaycan xalqı üçün böyük mənəvi dəyər daşıyır. Bu tarixi gün cəmiyyətimizdəki milli birliyi möhkəmləndirdi, həmrəyliyimizin, milli vəhdətimizin gücü ilə qazandığımız tarixi zəfərin fərəhini bizə yaşatdı. Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhu şad oldu. 30 il ərzində yurd həsrətinin acısından, xalqımızın başına gətirilən müsibətlərin ağırlığından ürəyimizə daman göz yaşlarımız sevinc göz yaşlarına çevrildi.

Azərbaycan belə bir paradla dünya ictimaiyyətinə, xüsusilə Cənubi Qafqaz bölgəsində sülh və sabitlik arzulayan xarici qüvvələrə də, müxtəlif təxribatlarla regionumuzu qarışdırmaq istəyənlərə də mühüm bir mesaj vermiş olacaq. Dövlət bu paradla Azərbaycanın təkcə hərbi üstünlüyünü deyil, həm də siyasi iradəsini və diplomatik strategiyasını yenidən nümayiş etdirəcək. Bu tədbir bölgədə digər tərəfləri sülhə və sabitliyə dəvət edən, ölkəmizin öz ərazi bütövlüyünü qorumaq istiqamətində qətiyyətini göstərən mühüm addım sayılır.

Zəfər paradı illərdən bəri apardığımız haqq savaşındakı tarixi qələbəmizin böyük nümayişidir. Bu parad vasitəsilə tarixin ən qüdrətli Azərbaycanını bir daha təqdim edəcəyik. Ölkənin mədəni və tarixi irsinə sadiqliyinin, Qarabağın tarixi sahiblərinin yenidən bu torpaqlara qayıtmasının simvolik təcəssümü kimi dəyərləndirmək lazımdır. Parad zamanı Azərbaycan Silahlı Qüvvələrinin nümayiş etdirdiyi güc ordumuza olan etimadın təntənəsinə çevrilir. Azərbaycan Prezidenti dünyada Qarabağ münaqişəsi ilə bağlı aydın təsəvvür formalaşdırmağa nail oldu. Xalqımızın torpaqlarımızın azadlığı uğrunda apardığı mübarizənin haqq işi olduğunu, tarixi ədalətə, beynəlxalq hüquqa əsaslandığını sübuta yetirdi. Azərbaycanın bu prinsipial mövqeyini ali tribunalardan dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Ölkəmizə qarşı gələcəkdə hər hansı ittihama əsas verməmək üçün sülh danışıqlarına sona qədər sadiq qaldı.

Bu mövzuda bizimlə söhbətləşən **hərbi ekspert Ramil Məmmədli** bildirdi ki, qələbənin beş illiyi ilə bağlı keçiriləcək paradda Azərbaycan Ordusunun arsenalında olan yeni müasir hərbi texnikalar nümayiş etdiriləcək. Onun sözlərinə görə, bu da paradı əvvəlkilərdən fərqləndirəcək. R.Məmmədli qeyd etdi ki, Azərbaycan Ordusu indi daha da təcrübəlidir və 5 il əvvəllə müqayisədə xeyli dərəcədə peşəkarlığı artıb: "Bu həm də son 5 ildə keçirilən müxtəlif təlimlərin nəticəsidir. Ordumuz Türkiyə və Pakistanla, Mərkəzi Asiya ölkələri ilə, İran və digər dövlətlərlə ayr-ayrı adlar altında hərbi təlimlərdə iştirak edib. Hazırda həm quru qoşunlarının, həm dəniz qüvvələrimizin, həm də hərbi hava qüvvələrinin peşəkarlığının artırılması istiqamətində iş aparılır. Həmçinin bu 5 il ərzində Azərbaycan yeni silah-sursat, müasir hərbi texnikalar alıb. Noyabrın 8-də keçiriləcək paradda Ordumuzun artan qüdrəti nümayiş etdiriləcək. Təbii ki, bəzi qüvvələr bunu fərqli şəkildə təqdim edə bilər. Deyilə bilər ki, ortada sülh anlaşması var və niyə Azərbaycan silahlanır..."

**Hərbi ekspert xatırlatdı ki, əvvəla, Azərbaycanla Ermənistan yekun sülh müqaviləsi imzalamayıb:** "İkincisi, müharibənin başa çatması o demək deyil ki, Ordumuzun hərbi arsenalı yenilənməməlidir. Bu gün müharibə aparmayan o qədər ölkə var ki, hər il silah təchizatını gücləndirir. Ona görə də bu fikirlər məntiqsizdir. O zaman Niderland, yaxud Danimarka kimi dövlətlər qonşularından hücum, savaş gözləmədiyi halda niyə "F-16" qırıcılarından tutmuş digər ağır silahlara qədər sahibləniblər? Üstəlik, Azərbaycan qarşıdakı illərdə hərbi xərclərini azaltmağı planlaşdırır. Ən əsası isə bu bir Zəfər paradıdır və Ordumuzun qazandığı tarixi qələbənin qeyd olunmasıdır. Necə ki, Çində faşizm üzərində qələbənin 80 illiyi ilə bağlı hərbi parad keçirildi".




Hərbi analitik vurğuladı ki, Azərbaycana qələbə yaraşır və bundan sonra da zəfərin 10, 15, 20 illiyi ilə bağlı hərbi paradlar keçirilməlidir. R.Məmmədli əlavə etdi ki, Azərbaycan postsovet məkanında işğalla üzləşmiş digər ölkələrlə müqayisədə suverenliyini tam bərpa etmiş yeganə ölkədir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Emil SALAMOĞLU



## Anar: "Qarabağ əvvəlkindən də gözəl olacaq"

**İşğaldan azad edilmiş torpaqlara qayıdış ölkəmizin hər bir vətənpərvər insanında böyük sevinc və qürur hissi doğurur. Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri, Xalq yazıçısı Anar Böyük Qayıdışın əhəmiyyəti barədə fikirlərini bölüşərkən, işğaldan azad edilmiş ərazilərdə evlərin bərpası və keçmiş məcburi köçkünlərin həmin yerlərə qayıdışı prosesini Vətən müharibəsindən sonra həyata keçirilən ən mühüm və böyük işlərdən biri olaraq qiymətləndirib.**

Bu barədə Modern.az-a Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Mətbuat Xidmətindən məlumat verilib.

Məlumatda bildirlir ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planına uyğun olaraq, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən məlumatlandırma, təbliğat-izahat və təşviqat işləri çərçivəsində sənət adamlarının, müxtəlif sahələrdə çalışan ziyalıların və gənclərin iştirakı ilə videoçarxlar hazırlanır. Xalq yazıçısı Anar öz müsahibəsində bildirib ki, bərpadan sonra Qarabağ əvvəlkindən də gözəl olacaq.

# Xankəndi, Ağdərə və Xocalıda məskunlaşanların sayı açıqlandı

**Oktyabrın 20-də Xankəndi şəhərində Qeyri-Hökumət Təşkilatlarının Əməkdaşlıq Forumu işinə başlayıb.**

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən Modern.az-a verilən məlumata görə, forumda çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov ölkəmizin son illərdə keçdiyi mühüm tarixi mərhələlərdən, dövlətimizin əldə etdiyi uğurlardan və bu prosesdə vətəndaş cəmiyyəti institutlarının rolundan bəhs edib.



Elçin Yusubov qeyd edib ki, Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonları üzrə köç planına əsasən 19 yaşayış məntəqəsində əhalinin məskunlaşdırılması istiqamətində işlər davam edir. Artıq 1040 ailə - 4064 nəfər keçmiş məcburi köçkün doğma yurduna qayıdıb. Ümumilikdə bu ərazilərdə 22 mindən çox şəxs məskunlaşıb və bütün sosial xidmətlərlə təmin olunub.

Qeyd olunub ki, bölgədə təhsil, səhiyyə və sosial infrastruktur sürətlə bərpa olunur. Qarabağ Universitetinin, müasir klinikanın, məktəb və uşaq bağçalarının fəaliyyətə başlaması, sahibkarlığın inkişafı və yeni iş yerlərinin yaradılması əhalinin dayanıqlı məskunlaşmasına mühüm töhfə verir. Hazırda ərazidə 546 sahibkarlıq obyektinin fəaliyyət göstərdiyi yerlərdə 3 mindən artıq şəxsin işlə təmin olunduğu, ümumilikdə 65 milyon manatdan çox investisiyanın həyata keçirildiyi vurğulanıb.

Elçin Yusubov çıxışında bildirib ki, işğaldan azad edilmiş ərazilərin inkişafında qeyri-hökumət təşkilatlarının rolu mühüm əhəmiyyət kəsb edir. QHT-lər dövlət siyasətinin həyata keçirilməsində, ictimai nəzarətin gücləndirilməsində, sosial layihələrin təşviqində və reinteqrasiya proseslərində mühüm tərəfdaş kimi çıxış edirlər.

"Qeyri-hökumət təşkilatları işğal dövründə və ondan sonrakı illərdə Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında, dezinformasiya kampaniyalarına qarşı mübarizədə, insan hüquqları və mədəni irsin qorunması istiqamətində böyük rol oynayıb. Bu gün isə onların qarşısında yeni və strateji vəzifə durur - azad edilmiş ərazilərin reinteqrasiyasında, sosial adaptasiya və bərpa proseslərində fəal iştirak etmək", - deyə Elçin Yusubov vurğulayıb.

YENİ MÜSAVAT
N 190 (8800) 21 oktyabr 2025

# Əhali üçün "yaşıl kart" təklifi - tibbi xidmətdə yenilik zərurəti

## Vaqif Qarayev: "İcbari tibbi sığorta üzrə qeydiyyat mərkəzləşdirilsin, özəl sektor prosesə cəlb olunsun"

**Tibb elmləri doktoru, professor Südeyf İmamverdiyev (Baku-Post) açıqlamasında deyib ki, səhiyyə müəssisələrinə gələnlərə xəstə kimi yox, bankomat, yəni maliyyə mənbəyi kimi baxılır. Onun sözlərinə görə, əgər hər kəsin dünyada olduğu kimi, tibbi sığorta kartı (yaşıl kart) olsa və tibb işçilərinin maaşı vahid tarif cədvəlinə görə verilsə, sığortadan asılı olmasa, belə acınacaqlı vəziyyət yaranmaz.**

İmamverdiyev bildirib ki, İcbari Tibbi Sığorta Agentliyi və TƏBİB tərəfindən adıçəkilən kartlar məqsədli şəkildə pasiyentlərə verilmir: "Ki, tibbi sığortaya ayrılmış və hər ay işçilərin maaşından tutulan vəsait bax beləcə, kimlərəsə sərf edilən şəkildə "silinsin". Kimi dindirirsən, hamı tibbi xidmətdə olan yarıtmaz vəziyyətdən danışır. Bütün problemlərin kökü məhz bu vəsaitin necə xərclənməsi, xəstənin əlindən məqsədli şəkildə alınmasıdır. Tibb işçilərinin maaşına sığortadan əlavələr təcili tibbi yardımda tətbiq edilən şəkildə digər səhiyyə müəssisələrinə də aid edilsəydi, fikrimcə, vəziyyət qismən də olsa müsbətə doğru dəyişərdi. Deyirlər ki, həkim çatışmır. Qanunvericiliyə görə, ali tibbi təhsili olub diplomu olan şəxs tibbi fəaliyyətlə məşğul ola bilər. Bəs işə qəbul niyə imtahanla aparılır?"

O da qeyd edilib ki, gigiyena, epidemiologiya, kommunal gigiyena (bura kanalizasiya sistemi də aiddir) ixtisasları üzrə rezidentura nəzərdə tutulur, ancaq bir çağırışda kardioloq, birində ginekoloq, birində pediatr, birində travmotoloq və s. olmağa çalışan təcili tibbi həkimi üçün isə nəzərdə tutulmur.



**İlərin təcrübəli həkimi, tanınmış pediatr Vaqif Qarayev mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "İcbari tibbi sığortadan ən çox gözləntisi olan həkimlərdən biri mənəm. İcbari tibbi sığortanın iki tərəfi var - həm əhaliyə xidmət edən tibb personalı, həm də insanlar. Mənim ən böyük gözləntim nə idi? Həkimlərlə xəstələr arasında olan əlavə ödənişlərin, rüşvət hallarının sığortanın hesabına aradan qaldırılması idi və deyə bilərəm ki, böyük ölçüdə bu, aradan qaldırılıb. İkinci məsələ isə odur ki, əvvəllər insanlar tanış həkim axtarırdılar, kimə getməli olduqlarını bilmirdilər. İndi isə artıq əhali bilir ki, hara müraciət etməlidir və nə etməlidir.

Amma hamı kimi mən də dövlət tibb müəssisələrindəki növbələrdən narazıyam. Əslində bütün dünyada tibbi sığortanın tətbiq edildiyi dövlət müəssisələrində növbə var və bu, qaçılmazdır. Sadəcə, təcili müdaxiləyə ehtiyacı olan xəstələr növbəyə salınmamalıdır, onlar dərhal qəbul olunmalıdır. Bizdə isə pasiyent əvvəl qeydiyyatdan keçir, sonra həkimin yanına gəlir, həkim onu müayinəyə göndərir, o, yenidən qeydiyyata qayıdır, hansı kabinetə yönləndiriləcəksə, ora təkrar növbəyə durur, cavabı gətirəndən sonra yenə növbəyə dayanır. Məncə, bu proses mərkəzləşdirilə bilər - xəstə bir dəfə qeydiyyatdan keçsin və artıq təkrar-təkrar növbələrə durmaq məcburiyyətində qalmasın".

**Həkim qeyd edib ki, dünyanın hər yerində sığorta tətbiq olunan sistemlərdə müəyyən çətinliklər olur:** "Bizdə də olacaq, sadəcə, ədalətli şəkildə idarə olunmalıdır. Əhali də, tibb personalı da bu sistemə uyğunlaşmalıdır. Şəffaflıq var, irəliləyiş də var, amma daha yaxşı ola bilər. Bir də mənim düşüncəmə görə (bilmirəm nə dərəcədə doğrudur), əgər sığorta pulunu dövlət verirsə, onda bu vəsait özəl tibb müəssisələrində də istifadə oluna bilər ki, yük dövlət xəstəxanalarının üzərində qalmasın.

Onsuz da bizdə kifayət qədər özəl tibb müəssisəsi var və onların çoxunda yüksək səviyyədə müayinə aparılır. Məncə, növbələrin qarşısını almaq üçün sığorta xidmətlərindən özəl tibb müəssisələrində də istifadə edilməlidir. Bu, mənim şəxsi fikrimdir. Təbii ki, bu işin içində olanlar, qərar verənlər bunu bizdən daha yaxşı bilirlər və necə tətbiq olunacağını da onlar müəyyən edirlər.

Sonda iki əsas məsələni qeyd etmək istəyirəm: birincisi, qeydiyyat prosesi mərkəzləşdirilsin ki, xəstə hər dəfə təkrar qeydiyyata durmasın. İkincisi, dövlət müəssisələrindəki növbələrin yükünü azaltmaq üçün özəl sektor da prosesə cəlb olunsun. Üstəlik, bölgələrdən Bakıya çox böyük axın var. Çünki rayonlarda həkim çatışmazlığı var, bunu danmaq olmaz. Avadanlıq və müayinə metodları da iri şəhərlərlə eyni səviyyədə deyil. Bu səbəbdən insanlar məcburən Bakıya gəlirlər və növbələr daha da artır. Hər dəfə deyilir ki, filan rayonda iş görüləcək, filan yerdə şərait yaradılacaq. Reallıqda nə qədər edilir bilmirəm, amma edilsə, əlbəttə, çox yaxşı olar".

Bütün bunlar göstərir ki, Azərbaycanda icbari tibbi sığorta sistemi hələ tam oturuşmayıb və nəzərdə tutulan sosial funksiyanı tam yerinə yetirə bilmir. Sistemin daha səmərəli işləməsi üçün struktur islahatları, şəffaflığın artırılması, tibbi xidmətlərin mərkəzləşdirilmiş qaydada təşkili və xüsusilə də regionlarda tibbi infrastrukturun gücləndirilməsi vacibdir. Əgər bu problemlər köklü şəkildə həll olunmasa, sistemin əsas məqsədi - əhaliyə keyfiyyətli və bərabər tibbi xidmət təmin etmək reallıqda kağız üzərində qalacaq.

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# İdman zalında qırılan gənc ömür - qəfil ölümə aparan səhvlər

## Həkim: "Qan təzyiqinin kəskin artması, ürək ritminin pozulması məşq zamanı baş verir"

**Bakıda gənc iş adamı idman zalında məşq edən zaman qəfildən ölüb. Hadisə paytaxtdakı idman zallarından birində baş verib. 35 yaşlı Toğrul Tapdıqzadə idman zalında məşq etdiyi vaxt qəfildən halı pisləşib. Zalda olanlar ona yardım göstərməyə çalışıb. Hadisə yerinə təcili tibbi yardım çağırılıb. Lakin iş adamının həyatını xilas etmək mümkün olmayıb.**

Tapdıqzadə Toğrul Yaşar oğlu 1990-cı ildə anadan olub. Əslən Laçın rayonundandır. Ailəlidir, 4 övladı var. O, iş adamıdır. Toğrul Tapdıqzadənin atası Yaşar Nəcəfov Birinci Qarabağ müharibəsinin veteranıdır. O, 811 saylı hərbi hissənin tərkibində döyüşüb. Laçın və Ağdam uğrunda gedən döyüşlərdə iştirak edib, ağır yaralanıb.

Təəssüf ki, bu ilk faciəvi hadisə deyil. Bəs niyə belə hallar baş verir. İdman zalına gedənlər sağlamlıqla bağlı nələri ciddiyə almalıdırlar? Kimlərə idman zalı əks-göstərişdir?



Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan **Bakı Ağrı Klinikasının baş həkimi, invaziv ağrı mütəxəssisi Zülfüqar Yusifov** qeyd edib ki, ölüm insan həyatının təbii bir hissəsidir və istənilən fəaliyyət növü zamanı, istənilən yaşda baş verə bilər: "Lakin bu hallar müəyyən sahələrdə - xüsusən də gənc və sağlam görünən insanlarda, idman və aktiv həyat tərzi ilə məşğul olan şəxslərdə artmağa başlayanda, artıq cəmiyyətdə narahatlıq yaradır. Çünki bu, adi bir təsadüf deyil, arxasında gizli risk faktorlarının və profilaktik tədbirlərin yetərsizliyinin dayandığını göstərir.

Son dövrlərdə idman zallarında baş verən qəfil ölümlər barədə xəbərlərin artması cəmiyyətdə haqlı narahatlıq doğurur. İnsanlar sual edir: sağlam olmaq üçün idmanla məşğul olan biri necə olur ki, zalda həyatını itirir? Bu sual həm tibbi, həm də sosial baxımdan ciddi araşdırma tələb edir".

**Zülfüqar Yusifov qəfil ölümlərin əsas tibbi səbəblərindən danışıb:** "Ən başlıca səbəblərdən biri orqanizmdə gizli qalan və vaxtında aşkarlanmayan xəstəliklərdir. Bu xəstəliklər bəzən irsi (genetik) xarakter daşıya bilər və uzun müddət simptomsuz keçə bilər. Lakin yüksək fiziki yüklənmə, ağır idman proqramları və süni şəkildə artırılan energetik potensial bu gizli problemləri üzə çıxara və qəfil ölümə səbəb ola bilər.

Bəzi hallarda bu ölümlər ürək-damar sistemi ilə bağlı olur. Kardiomiopatiyalar, ürək ritm pozğunluqları, damar daralmaları və ya anadangəlmə qüsurlar yüksək yüklənmə zamanı özünü göstərir. Qan təzyiqinin kəskin artması, ürək ritminin pozulması və ya ani ürək dayanması kimi hallar çox zaman məşq zamanı baş verir".

**Mütəxəssis qeyd edib ki, qəfil ölümlərin qarşısını almağın ən effektiv yolu profilaktik tibbi müayinələrdən keçməkdir:** "Müayinələr iki istiqamətdə aparıla bilər:

1.Fərdi erkən müayinələr - vətəndaşın öz təşəbbüsü ilə orqanizmin ümumi vəziyyətini qiymətləndirmək üçün həkimə müraciət etməsi;

2.Səhiyyə sisteminin təşəbbüsü ilə aparılan skrininq proqramları - risk qruplarını müəyyən edib erkən diaqnostika aparmaq məqsədi daşıyır.

Əslində skrininq müayinələri üçün müəyyən yaş intervalları mövcuddur, lakin risk amilləri peşə, həyat tərzi və fiziki aktivlik səviyyəsindən asılı olaraq fərqli ola bilər. Məsələn, ağır idman növləri ilə məşğul olan şəxslər üçün standart yaş həddlərindən daha erkən və daha dərin müayinələrin aparılması məqsədəuyğundur. Bu, həm ürək, həm də digər orqan və sistemlərin fiziki yüklənməyə nə qədər hazır olduğunu qiymətləndirməyə imkan verir".

**"Bəs idmanla məşğul olanların xüsusi diqqət etməli olduğu məqamlar hansılardır?" sualına Zülfüqar Yusifov bu cür cavab verib:** "İdman fəaliyyəti insan sağlamlığı üçün çox vacib olsa da, hər orqanizm bu fəaliyyətə eyni dərəcədə uyğun deyil. Xüsusilə ağır atletika, krossfit, bodybuilding kimi növlərdə iştirak edən şəxslər üçün əvvəlcədən tibbi yoxlamadan keçmək və həkim nəzarətində məşq planı hazırlamaq çox vacibdir.

Digər vacib məsələ - idman əlavələri və preparatların istifadəsidir. Anabolik steroidlər, enerji artırıcı preparatlar və bəzi qida əlavələri bədənə süni güc verir, lakin bu güc bəzən orqanizmin təbii potensialını aşır. Nəticədə, ürək-damar sisteminə, qaraciyərə və hormonal tarazlığa ciddi zərbə dəyə bilər. Bu da qəfil ürək dayanması, insult və ya daxili orqan çatışmazlığı ilə nəticələnə bilər".

**Zülfüqar Yusifov bildirir ki, idman zallarında rast gəlinən ən böyük problemlərdən biri də qəfil hal baş verdikdə ilk tibbi yardımın düzgün göstərilməməsidir:** "Bir çox ölkələrdə artıq həkimə qədərki ilkin yardım bilikləri hər bir vətəndaşa məktəbdən öyrədilir. Azərbaycanda da bu istiqamətdə kütləvi maarifləndirmə və təlim proqramlarının keçirilməsi vacibdir.

Hər bir idman zalında ilkin tibbi yardım vasitələrinin, xüsusilə defibrilyatorun (ürək ritmini bərpa edən cihaz) olması, həmçinin zal əməkdaşlarının bu cihazdan istifadəni bacarması həyati əhəmiyyət daşıyır. Çünki elmi araşdırmalara görə, ürək dayanmasından sonra ilk 3-5 dəqiqə ərzində göstərilən düzgün yardım insanın həyatını xilas edə bilər.

İdman zamanı bədən bir çox siqnallar verir: qəfil başgicəllənmə, təngnəfəslik, ürəkdöyünmə, təzyiqin yüksəlməsi, qarışıqlıq hissi və ya ani halsızlıq. Bu simptomlar heç vaxt kiçik sayılmamalıdır. Onlar orqanizmin artıq yüklənməyə dözə bilmədiyini göstərir və bu halda məşqi dərhal dayandırmaq, həkimə müraciət etmək lazımdır".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 190 (8800) 21 oktyabr 2025

# SOS! Qış gəlməmiş dəm qazı fəlakəti başladı - əhaliyə xəbərdarlıq

## "Səssiz qatil" işə düşdü, Gəncədə bir ailə zəhərləndi - ekspertlər bu faciədən çıxış yollarını açıqladı

**Havaların soyuması ölkə üzrə qış istilik rejiminə keçidi yaxınlaşdırır. Bu isə xüsusilə kombi sistemi olmayan mənzillərdə və fərdi evlərdə qaz sobalarının yenidən işə salınması deməkdir. Təəssüf ki, hər il eyni mənzərə ilə qarşılaşırıq: payız-qış mövsümü başlayar-başlamaz "səssiz qatil" adlandırılan dəm qazı insanların həyatına son qoyur.**

Bütün xəbərdarlıqlara, maarifləndirici kampaniyalara baxmayaraq, bu ilin soyuq mövsümünə də faciə xəbərləri ilə daxil olmuşuq. Artıq Gəncədə bir ailənin dörd üzvü dəm qazından zəhərlənib. İlkin məlumata görə, 1989-cu il təvəllüdlü Əminə Səmədova və onun üç azyaşlı övladı ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib.

Əfsus ki, payızın ilk aylarından belə hadisələrin sayı artır və hər il bu dövr "dəm qazı fəsli"nə çevrilir. Məsələ təkcə fərdi məsuliyyətsizliklə izah olunmur - burada həm texniki, həm sosial, həm də maarifləndirmə problemləri var.

Mütəxəssislərin fikrincə, dəm qazından zəhərlənmə hallarının çoxalmasının bir neçə əsas səbəbi var. İlk növbədə, qaz sobalarının və qazanların köhnəlməsi, texniki cəhətdən yoxlanılmaması faciələrin əsas qaynağıdır. Sobalarda qaz tam yanmadıqda karbonmonoksit - ölümcül qaz əmələ gəlir. Rəngsiz və qoxusuz olan bu qaz hiss olunmur və çox qısa zamanda ölümə səbəb olur.

Digər vacib amil ventilyasiya sistemlərinin işləməməsidir. Bir çox evlərdə, xüsusilə də hamam və mətbəxlərdə havalandırma kanalları ya yoxdur, ya da bağlanıb. Soyuq havalarda bəzi insanlar ventilyasiya deşiklərini örtür, bu isə qazın toplanmasına şərait yaradır. Qaz cihazlarının qeyri-peşəkar quraşdırılması da təhlükəni artırır.

**Tanınmış həkim, tibb elmləri doktoru, professor Adil Qeybulla bildirir ki, dəm qazından zəhərlənmə əsasən texniki şərtlər gözlənmədikdə baş verir:** "Dəm qazından zəhərlənmə əvvəllər daş kömür sobalarında baş verirdi. Zəhərlənmə ondan ayrılan karbon oksid vasitəsilə reallaşırdı. Bundan əlavə, müxtəlif qaz sobalarından istifadə zamanı texniki şərtlər gözlənilmədikdə də zəhərlənmə olur. Dəm qazı nəfəs aldıqda iy hiss etmədiyimiz, selikli qişada qıcıqlanma törətməyən bir qazdır. Nəfəs yolları ilə bədənə daxil olur, daha sonra hemoqlobini özünə birləşdirir və karboksihemoqlobin əmələ gətirir.

Karboksihemoqlobin əmələ gətirdiyinə görə hemoqlobin artıq oksigeni özünə birləşdirə bilmir. Müəyyən miqdardan sonra toxumalar oksigensiz qalır. Problemin mahiyyəti budur. Orqanizmdə həyati funksiyaları saxlamaq imkanına qədər hemoqlobin qalıbsa, həmin insanlar sağ qala bilir. Əgər bütün hemoqlobin birləşirsə, belə xəstələr ayılmırlar".



**"Azəriqaz" İstehsalat Birliyinin sabiq şöbə rəisi Nüsrət Qasımovun sözlərinə görə, dəm qazından zəhərlənmə hallarının böyük əksəriyyəti hamamlarda baş verir ki, bunun da səbəbi var:** "Səbəb budur - tüstü bacaları təmizlənmir. Tüstü bacaları evin damından yarım metr hündürlükdə olmalıdır. Həmçinin başında xüsusi qoruyucusu olmalıdır ki, quşlar yuva qurmasın. Buna heç kim məhəl qoymur. Ümumiyyətlə, əhaliyə başa salan yoxdur ki, tüstü bacaları necə təmizlənməlidir. Bu barədə əhali maarifləndirilməlidir".

**Ekspert bildirir ki, havalandırma sisteminə də diqqət etmək lazımdır:** "Dəm qazının iyi var. Bu, sarımsaq iyinə oxşayır. Həmçinin dəm qazı gözü acışdırır. Hamam otağında digər təsirlərdən bunu hiss etməyə bilərsiniz. Ona görə də hamam otağının ölçülərinə də diqqət etmək lazımdır. Hamamın həcmi 7.5 kubmetr olmalıdır. Hündürlüyü 2.20 sm, qapısı da bayıra açılmalı və aşağısında deşiklər olmalıdır. Səbəb də xaricdən havanın daxil olaraq, yanma prosesinə kömək etməsidir. Havalandırma elə işləməlidir ki, 1 saatda 3 dəfə içərinin havası dəyişsin. Heç kim bu normativlərə fikir vermir. Eyni zamanda vətəndaş özü qaz sobasını qurmalı deyil. Bunun üçün də ustalar var. Qazla məşğul olan ustaların da lisenziyası olmalıdır. 1 kubmetr metan qazı yanan zaman 9 kubmetr hava lazım olur. Bu hava çatmayanda və ya çox olanda yanma prosesi pozulur. Bu zaman da karbon 4 oksid əvəzinə karbon 2 oksid ayrılır və 7 dəqiqə ilə 30 dəqiqə arasında o mühitdə nəfəs alan insan zəhərlənib ölür.

Bundan başqa, qaz cihazı olan yerdə mütləq qaz sızması və dəm əleyhinə dedektor qoyulmalıdır. Dəm qazı əleyhinə olan dedektor dəm qazı əmələ gələndə bu barədə istifadəçiyə siqnal verir, istifadəçi də otaqda dəm qazının olduğunu bilir. Bu zaman dərhal otaqlar havalandırılmalıdır. Qaz sızmasının əleyhinə olan detektor isə qaz sızma zamanı anında qazın təchizatını dayandırır, istifadəçi bu barədə məlumatlı olur".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

# Xalq artistindən təsirli çağırış: "Uşaqlara bunu etməyin!.."

## Mal-heyvanlarda dabaq xəstəliyi dönərxanalara nəzarəti gücləndirməyi qaçılmaz edir - mütəxəssislərdən xəbərdarlıq

**Xalq artisti Brilliant Dadaşova sosial media hesabında paylaşım edib. Sənətçi Qaraçuxurda pulsuz dönər paylanılmasını qınayıb. Belə ki, ifaçının yayımladığı görüntülərdə azyaşlı uşaqların çoxluq təşkil etməsi diqqət çəkib: "Rayonlarda mal-qaranın ağzına yara düşüb. Uşaqlara bunu etməyin. Vicdanınız olsun", - deyə B. Dadaşova paylaşımında yazıb.**

Qeyd edək ki, əvvəlcə Ağcabədi, indi də Cəlilabad və Qaxda heyvanlar arasında yoluxucu virus yayıldığı bildirilir. Söhbət fermerlərin qorxulu yuxusuna çevrilən dabaq xəstəliyindən gedir. Heyvanların xəstələnməsi fermerlərdə narahatlıq yaradıb. Bəzi sahibkarlara ciddi ziyan dəyib. Cəlilabad rayonunun Uzuntəpə kənd sakini deyir ki, 30-a yaxın xırdabuynuzlu heyvanı tələf olub.

Artıq bir aya yaxındır ki, Qaxın Qaysarlı kəndində də heyvanlar arasında yayılan bu virus kəndli-fermerləri xeyli ziyana salıb. Onların sözlərinə görə, xəstəliyin fəsadları qaçılmazdır: məhsuldarlığı



kəskin azalıb - süd verimi 50-70% aşağı düşüb. Heyvanların ağız boşluğunda, dırnaqlarda və bəzi nahiyələrdə yaralar əmələ gəlir. Bundan başqa, xəstə heyvan yem yeyə bilmir, hərəkəti çətinləşir, bəziləri isə bir müddət sonra ölür.

Xalq artistinin isə çağırışı ona işarə edir ki, xəstə heyvanların əti Bakıya gətirilir və dönərxanalara paylanır. Onsuz da dönər ətinin mənşəyi ilə bağlı tez-tez müxtəlif iddialar səslənir, xəbərdarlıqlar olunur. Son aylarda ayrı-ayrı regionlarda dönərdən kütləvi zəhərlənmələr də olub. Bu mənada diqqətli olmaq, dabaq xəstəliyi ilə bağlı yoxlamalar aparmaq əşhədü-ehtiyacdır.

Bəs hazırda bu problemlə bağlı vəziyyət nə yerdədir və dönərxanalara həmin xəstə heyvanların ətinin verilib-verilmədiyini necə müəyyən etmək olar?

**Qida eksperti Fərid Səfərov** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, bu xəstəlik əsasən ev quşları arasında yayılsa da, bəzi hallarda digər heyvan növlərinə də təsir edə bilər: "Dabaq xəstəliyi xüsusilə quşların sağlamlığına ciddi təsir göstərə bilər və bu da heyvanların sayında azalmaya səbəb ola bilər. Dabaq xəstəliyi heyvanların sayında azalmaya səbəb ola bilər. Xəstəlik nəticəsində heyvanların ölüm nisbəti arta bilər və bu da ümumi heyvan populyasiyasına mənfi təsir göstərə bilər.

Ət idxalı ilə bağlı məsələyə gəlincə, keçən il illə bu il arasında ət idxalında müəyyən dəyişikliklər müşahidə oluna bilər. Bu dəyişikliklər əsasən daxili istehsalın səviyyəsi, xəstəliklər və bazar tələbatı ilə əlaqədar ola bilər. Əgər xəstəlik nəticəsində daxili istehsal azalarsa, idxalın artması ehtimalı mövcuddur.

Ümumiyyətlə, dabaq xəstəliyinin yayılması həm heyvanların sağlamlığına, həm də iqtisadiyyata mənfi təsir göstərir. Bu səbəbdən müvafiq tədbirlərin görülməsi və məlumatlılığın artırılması vacibdir.

Dönərxanalara bu cür heyvanların ətinin verilməsi ilə bağlı bizim əlimizdə konkret sübut yoxdur. Amma bütün hallarda insanlar özlərini dönərdən imtina etməklə qoruya bilərlər".

**Azad İstehlakçılar İctimai Birliyinin sədri Eyyub Hüseynov qəzetə açıqlamasında bildirib ki, hökumətin biznesin inkişafı siyasəti ilə istehlakçı siyasəti uyğun gəlmir**: ""İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanun 1995-ci ildə qəbul edilib. Ondan sonra qanunda olan dəyişikliklərin hamısı istehlakçının zərərinə oldu. Təsadüfi deyil ki, ombudsmanın 101 səhifəlik illik hesabatında bir kəlmə də olsun istehlakçı sözü yox idi. Mən Milli Məclisdə müzakirələrdə bildirdim ki, istehlakçı hüquqları insan hüquqlarının tərkib hissəsidir.

Biznesə toxunulmazlıq şəraiti yaradılıb. Biznesi heç kim yoxlaya və müşahidə apara bilməz. Bu isə istehlakçı siyasəti ilə uyğun gəlmir. Həmçinin AQTA-nın yoxlama funksiyaları çox məhduddur. Qida sektoru çox vacib məsələ olduğu üçün mütləq hökumətin siyasəti dəyişməli və AQTA-ya istənilən vaxtı yoxlama səlahiyyəti verilməlidir. Onun belə bir imkanı olmadığı üçün vəziyyət bu yerə gəlib çatıb.

Təsadüfi deyil ki, danışdığımız mövzu ilə bağlı Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi 5 il bundan öncə əməliyyatlar apardı və həbslər oldu. Lakin yenə də ölmüş və ənənəvi olmayan heyvan ətləri Bakıya daşınır".

**E.Hüseynov deyir ki, qida sektoru ilə bağlı ciddi ictimai nəzarət olmalıdır:** "Hazırda bu, yox səviyyəsindədir. AQTA elə bir iş aparmalıdır ki, hər birimiz onun könüllüsünə çevrilək. Yararsız ət məhsullarının Bakıya gətirilməsi, satılması insanların gözünün qarşısında baş verir. Problem ondadır ki, ölkədə hər bir ətin satışına icazə var. Nazirlər Kabineti qərar verməlidir ki, Azərbaycanda ənənəvi olmayan heyvan ətlərinin satışı qadağan olunsun".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 190 (8800) 21 oktyabr 2025

# Neft su qiymətinə - Azərbaycan üçün risklər

## Analitik mərkəzlər qiymətlərin 65 dollar həddindən yuxarı qalxmayacağı, əksinə, 60 dolların altına enəcəyinə dair xəbərdarlıq edirlər

**Neftin dünya bazar qiyməti 60 dollar civarındadır. Analitik mərkəzlər mövcud şərtlər qaldığı təqdirdə yaxın və ortamüddətli dövrdə qiymətlərin 65 dollar həddindən yuxarı qalxmayacağı, əksinə, 60 dolların altına enəcəyinə dair xəbərdarlıq edirlər.**

Hazırkı qiymət enişinin başlıca səbəbi istehlak tələbinin zəif artımı fonunda bazara çıxarılan izafi neft həcmləridir.

Beynəlxalq Enerji Agentliyinin proqnozuna görə, cari ilin içində olduğumuz son rübündə qlobal neft profisiti sutkada 3,6 milyon barrel olacaq. Müqayisə üçün qeyd edək ki, bu il arxada qalan dövründə orta profisit sutkada 1,9 milyon barel olub. Bu, qiymətlərin aşağı düşməsinə səbəb olur: hazırda Brent markalı neftin bir barreli 60 dollar ətrafındadır ki, bu da ötən illə müqayisədə 18 dollar ucuzdur.

Maraqlıdır ki, iri neft-qaz şirkətlərinin rəhbərləri panikaya düşmürlər. "TotalEnergies"in baş direktoru Patrick Puyanne bəyan edib ki, qiymət bir barel üçün 60 dollara düşərsə, qeyri-OPEC istehsalçıları hasilatı azaltmağa başlayacaq, çünki onlara bu qiymətlə hasilat mənfəətsiz olacaq. Bu, artıq nefti avtomatik olaraq bazardan çıxaracaq.

Bütün yüksək səviyyəli neft rəhbərləri əmindirlər ki, dünya uzunmüddətli perspektivdə, xüsusən də Çin və Hindistan kimi inkişaf edən iqtisadiyyatlar səbəbindən nefti acgözlüklə istehlak etməyə davam edəcək. "Saudi Aramco"nun baş direktoru Amin Nasser açıq şəkildə deyir: "Bu tədarükləri təmin etmək üçün uzunmüddətli investisiyalar lazımdır".

"ExxonMobil"in baş direktoru Darren Vuds xəbərdarlıq edib ki, yeni, mürəkkəb yataqlara investisiya qoyulmasa, mövcud yataqlarda hasilat hər il 15 faiz azala bilər. Buna görə də o, mövcud bolluğu "qısamüddətli problem" adlandırıb.

"ConocoPhillips"in rəhbəri Rayan Lansa görə, artan tələbatı ödəmək üçün dünyanın yeni tədarükə ehtiyacı var və bunun üçün qiymətlər yüksəlməlidir. Onun fikrincə, investisiyaları stimullaşdıran tarazlıq qiyməti bir barel üçün 70-75 dollar diapazonundadır.

Bu rəylər göstərir ki, neft sənayesi mütəxəssisləri hazırkı qiymət enişini müvəqqəti "artan ağrı" hesab edərək panikaya düşmürlər. Onlar əmindirlər ki, bazar özünü sağaldacaq: aşağı qiymətlər bəzilərini getməyə məcbur edəcək, sabit tələb və yeni istehsala investisiya ehtiyacı isə sonda hər şeyi normal vəziyyətə salacaq və qiymətləri yüksəldəcək.

Lakin Beynəlxalq Enerji Agentliyinin (IEA) ekspertlərinə görə, neft şirkətlərinin proqnozlaşdırdığı təklif azlığı yaxınmüddətli dövrdə real deyil. Onların hesablamalarına əsasən qlobal neft bazarı 2026-cı ildə rekord təklif profisiti ilə üzləşəcək. Buna bazara çıxarılan neftin çoxalması fonunda alıcı tələbinin onu qarşılayacaq sürətlə artmaması səbəb olacaq. Beləliklə, bazara gündə 2,96 milyon barel izafi neft daxil olacaq. Həm bu il, həm gələn il neftə tələbatın artım tempi 2023-cü ildəkinin yarısından da az olacaq. Qlobal tədarük əvvəllər proqnozlaşdırılan gündəlik 2,1 milyon barelə qarşı 2,5 milyon barel, gələn il isə daha 1,9 milyon barel artacaq.



Agentliyin analitikləri etiraf edirlər ki, Rusiya və ya İrana qarşı yeni sanksiyaların tətbiqi vəziyyəti qısa müddətə dəyişə bilər, lakin təsir uzunmüddətli olmayacaq.

BEA-ya görə, qlobal neft istehlakı bu il gündə cəmi 680 min barel artacaq ki, bu da 2019-cu ildən bəri ən aşağı göstəricidir. Hesabata görə, 2026-cı ildə qlobal istehlak sutkada 700 min barel artacaq. BEA-nın proqnozlarına əsasən, ölkələr mədən yanacaqlarından elektrik nəqliyyat vasitələrinə sürətlə keçdiyinə görə qlobal neft tələbatı onilliyin sonundan azalmağa başlayacaq.

"Fitch" agentliyi isə 2025 və 2026-cı illərdə qlobal neft tələbinin gündəlik 700-800 min barel artacağını gözləyir. Bildirilir ki, bu da daha aşağı iqtisadi artım və enerji keçidi ilə bağlıdır.

**Reytinq agentliyi bildirib ki, 2025 və 2026-cı illərdə hasilat artımı tələbi gündəlik 1 milyon bareldən çox üstələyəcək və bazarda izafi təklif davam edəcək:** "Rusiya və İran neftinə qarşı əlavə sanksiyalar və tariflər qiymətlərə risk əlavəsi gətirsə də, bazarı ciddi daraltmayacaq. Çünki Rusiya həcmləri hələ də artıqlıq olan bazara satılır. Avropa İttifaqı Rusiyaya qarşı əlavə sanksiya paketi qəbul edərək neft qiymət limitini 60 ABŞ dollarından 47,6 dollara endirib və Rusiya neftindən alınan emal olunmuş məhsulların idxalını məhdudlaşdırıb. ABŞ isə Hindistanın Rusiya nefti alması səbəbindən ölkədən idxala əlavə 25 faizlik tarif tətbiq edib və İran neftinin daşınması ilə bağlı bir sıra gəmiçilik şirkətləri və gəmilərə sanksiya tətbiq edib".

Bazara neftin tələbdən çox çıxarılması bir tərəfdən ABŞ, Kanada, Braziliya və Qayanadan, digər tərəfdən isə könüllü azaldılan həcmləri daha sürətlə bərpa edən OPEK+-dan qaynaqlanır. Nəticədə tələb təklif artımını qarşılaya bilmir və hazırda neft qlobal anbarlara yığılmaqdadır. İlin sonuna doğru bu anbarların dolması qiymətləri daha da aşağı çəkəcək.

Yaxınmüddətli dövrdə neft qiymətlərinə artırıcı təsir Rusiya neftinin tamamilə, yaxud qismən bazardan çıxması ola bilər. ABŞ-ın Hindistan və Çinə Rusiya neftini aldıqlarına görə təzyiqləri artırır. Artıq dekabrdan Hindistanın Rusiyadan neft alışını 50 faiz azaldacağına dair məlumatlar yayılır. Çin isə öz hasilatını çoxaltmaq, elektrikli avtomobillərə keçidi sürətləndirmək və bərpa olunan mənbələrdən enerji istehsalını artırmaq yolu ilə neft idxalını ciddi templərlə azaldır.

Analitiklərə görə, hətta ABŞ istəyinə nail olub Hindistanın Rusiyadan neft alışının qarşısını ala bilərsə, bu, bazardakı mövcud təklifə çox az təsir edəcək. Gözlənilir ki, Rusiyanın ixrac etdiyi gündəlik həcmlərin həttа 4 milyon barel azalması belə qısa müddətə qiymətləri 65-70 dollara qədər qaldıra bilər. Qeyri-OPEK və OPEK ölkələri çox qısa müddətdə gündəlik hasilatı 5 milyon barelə qədər artırmaq imkanındadırlar.

Bəzi analitiklərə görə, Amerikanın şist nefti istehsalçıları üçün əlverişli qiymət 60 dollardır. Ondan aşağı qiymət səviyyəsi onların hasilatı azaltmalarına gətirib çıxaracaq ki, bu da bazardakı artıq təklifin mühüm hissəsinin aradan qalxmasına, qiymətlərin artmasına səbəb olacaq.

İqtisadiyyatı böyük ölçüdə neftdən asılı olan Azərbaycan üçün neft bazarındakı hazırkı proseslər, gələn il gözlənilən vəziyyət heç də ürəkaçan perspektiv vəd etmir. Ölkənin builki büdcəsi neftin 70 dollarlıq, gələnilki büdcəsi isə 65 dollarlıq qiyməti əsasında hesablanıb. Hökumətin optimist yanaşmasına görə, 65 dollarlıq qiymətlərlə gələn il Dövlət Neft Fondundan büdcəyə transfertin 12 milyard 835 milyon manat olması təmin ediləcək. Bu, cari ildəki proqnozdan 1 milyard 646 milyon manat azdır.

Həmçinin 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38 milyard 609 milyon manat məbləğində proqnozlaşdırılır. Bu gəlirlərin tərkibində qeyri-neft sektorunun payının əhəmiyyətli dərəcədə artması gözlənir: Belə ki, büdcə layihəsinə əsasən gəlirlərin 57,4 faizi, vergilərin isə 78,7 faizi qeyri-neft mənbələri hesabına formalaşacaq.

Büdcə layihəsinə görə, gələn il qeyri-neft gəlirləri büdcənin cari xərclərinin 88.1 faizini ödəməyə imkan verəcək. Bu, cari illə müqayisədə 7.1 faiz bəndi çoxdur.

Bütün bunlar o zaman reallaşacaq ki, Azərbaycan neftinin orta qiyməti 65 dollara bərabər olsun. Bu qiymət həm də ölkənin əsas makroiqtisadi göstəricilərindən biri olan cari əməliyyatlar hesabında profisitin olması üçün vacibdir. Niderlandın ən böyük bank qrupu "ING Group" proqnozlaşdırır ki, 2025-ci ildə Azərbaycan cari əməliyyatlar hesabında ÜDM-in təxminən 2 faizi səviyyəsində profisit olacaq, lakin 2026-cı ildə bu göstərici defisitə keçə və təxminən ÜDM-in 3,3 faizini təşkil edə bilər.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

## Büdcənin gəlir və xərcləri artır - səbəb




**Azərbaycanın 2026-cı il üçün dövlət büdcəsinin gəlir və xərcləri ilkin variantla müqayisədə müvafiq olaraq 186 milyon manat və 155 milyon manat artırılıb.**

Sənədə əsasən, gələn il büdcə gəlirlərinin 38 milyard 609 milyon manat (2025-ci ilin təsdiq olunmuş proqnozuna nisbətən 0,7% çox), xərclərinin isə 41 milyard 703,6 milyon manat (+0,7%) olacağı gözlənilir.

2026-cı il üçün büdcə gəlir və xərclərinin artırılması hansı iqtisadi səbəblərlə əlaqələndirilə bilər?

Qaynarinfo-nun suallarını cavablandıran iqtisadçı ekspert Rauf Qarayev bildirib ki, gəlirlərin artımında əsas rol neft gəlirlərinə məxsusdur. Onun sözlərinə görə, 2025-ci il üçün büdcə proqnozlarında da vurğulanmışdı ki, gəlirlərin bir hissəsi cərimələrin yığılması hesabına formalaşacaq.

Vergi və gömrük rüsumlarının toplanması ilə yanaşı, əmlak məsələləri üzrə qurumların da bu prosesdə payı nəzərdə tutulur. Bundan əlavə, xarici investisiyaların cəlb olunması da gəlirlərin artımına təsir edən əsas istiqamətlərdən biridir.

Xərclərə gəlincə, ekspert qeyd edib ki, layihədə mülki müdafiə xarakterli xərclər yenə üstünlük təşkil edir: "Baxmayaraq ki, hazırda sülh dövründəyik və hər hansı münaqişə müşahidə edilmir, müdafiə qabiliyyətimizin gücləndirilməsi prioritet olaraq qalır. Bu səbəbdən də, mülki müdafiə ilə bağlı xərclərin artımı əsas istiqamətlərdən biridir".

Rauf Qarayevin sözlərinə görə, artım yalnız müdafiə sahəsində deyil, sosial istiqamətdə də müşahidə olunur.



## Fərhad Məmmədov: “Konqresin bu layihəsi Azərbaycana təzyiqdir”

**“ABŞ Konqresində irəli sürülmüş "Sülh Aktı" (PEACE Act) qanun layihəsinin əsl məqsədi sülh yox, Azərbaycanın təzyiq altına alınmasıdır".**

“AzPolitika” xəbər verir ki, bunu **politoloq Fərhad Məmmədov** bildirib.

Ekspert qeyd edib ki, 2025-ci il sentyabrın 30-da ABŞ Nümayəndələr Palatasının Xarici Əlaqələr, Hüquq və Maliyyə komitələrində təqdim olunan 5632 saylı bu qanun layihəsi, zahirən sülhü təşviq etsə də, əslində birtərəfli mövqe daşıyır və Ermənistanı müdafiə, Azərbaycanı isə cəzalandırma məqsədi güdür.

“Qanun layihəsi Ermənistan və Azərbaycan arasında əldə ediləcək razılaşmanın pozulması halında yalnız Azərbaycanın cəzalandırılması ssenarisini nəzərdə tutur. Amma Ermənistanın mümkün təcavüzü və ya razılaşmadan birtərəfli çıxması, ümumiyyətlə, nəzərdən keçirilmir”, - deyə politoloq bildirib.

**Fərhad Məmmədovun fikrincə, bu layihənin arxasında erməni lobbisinin strateji planı dayanır:** “Erməni lobbisi ABŞ-nin qanunverici hakimiyyətində təsirli olsa da, icraedici hakimiyyətə - yeni administrasiyalara - istədiyi formada təzyiq göstərə bilmədi. Xüsusilə Prezident İlham Əliyevlə keçmiş ABŞ Prezidenti Donald Tramp arasında yaranmış qarşılıqlı rəğbət onların işini çətinləşdirdi. Ona görə də erməni lobbisi taktikasını dəyişərək qanunvericilik sahəsində struktur dəyişikliyə yönəldi”.

F.Məmmədov əlavə edib ki, layihənin adı - “Sülh Aktı” qəsdən seçilib, çünki bu ad altında təqdim olunan sənədə qarşı çıxmaq siyasi cəhətdən “sülhə qarşı çıxmaq” kimi təqdim edilə bilər: “Bu sənəddə guya Azərbaycan və Ermənistanın ərazi bütövlüyünə hörmət göstərilir, Vaşinqton razılaşması alqışlanır. Amma eyni zamanda Azərbaycanın keçmiş fəaliyyəti qanunverici şəkildə "təcavüz" kimi təqdim olunur və gələcəkdə istənilən administrasiyaya sanksiyalar tətbiq etmək öhdəliyi qoyulur”.

Fərhad Məmmədovun fikrincə, bu qanun layihəsi həm də ABŞ Konqresinin Cənubi Qafqaz siyasətində institutlaşdırılmış rolunu artırmaq məqsədi daşıyır: “Ənənəvi olaraq ABŞ-də xarici siyasət icraedici hakimiyyətin - yəni prezidentin səlahiyyətində olub. Məsələn, "907-ci düzəliş"in tətbiqi və ya dondurulması kimi. ‘Sülh Aktı’ isə bu səlahiyyətləri məhdudlaşdıraraq, Konqresin rolunu genişləndirməyə, Azərbaycanla bağlı siyasəti məhdud çərçivəyə salmağa yönəlib”.

**Sonda politoloq bildirib ki, bu təşəbbüs erməni lobbisinin uzun illərdir arzuladığı Cənubi Qafqaz üzrə struktur dəyişikliyi yaratmaq məqsədi daşıyır:** “Bir sözlə, bu sənədin məqsədi ABŞ administrasiyalarının gələcəkdə Azərbaycanla bağlı siyasətini çərçivələmək və erməni lobbisinin strateji maraqlarına xidmət etməkdir”.

# Trampın “qamçı və kökə” taktikası - Putin güzəştə hazırlanır?

## Ukrayna ilə Rusiya arasında ilin sonuna qədər atəşkəs gözləntisi var; ekspert isə savaşın uzanacağı qənaətindədir



**ABŞ dövlət katibi Marko Rubio bu həftə Rusiya rəsmiləri ilə məsləhətləşmələr aparacaq. Bu, prezident Donald Tramp və Vladimir Putin arasında Budapeştdə keçiriləcək sammitin gündəliyi ilə bağlıdır.**

“The Washington Post” öz mənbələrinə istinadən bildirir ki, qarşıdakı məsləhətləşmələr zamanı dövlət katibi Rusiyaya bir sıra iqtisadi xarakterli stimullaşdırıcı təklif verə bilər ki, onların da reallaşması, Vaşinqtonun fikrincə, Rusiya-Ukrayna müharibəsinin həlli üçün sülh sazişinin bağlanmasından sonra mümkün olacaq. Təzyiqin tərkib hissəsi kimi isə ABŞ-nin Kiyevi daha uzaqmənzilli silahlarla təmin etmək imkanı, habelə Rusiyaya qarşı sanksiyaların gücləndirilməsi nəzərdən keçirilir. Yəni söhbət Trampın “qamçı və kökə” taktikasından gedir.

“The Washington Post” öz mənbələrinə istinadən yazıb ki, Putin Trampla son telefon danışığı zamanı müharibəni dayandırmaq üçün şərt kimi Ukraynadan Donetsk bölgəsini verməsini tələb edib. Qəzet bildirir ki, bunun müqabilində Kreml güzəşt olaraq Zaporojye və Xerson vilayətlərinin bəzi hissələrinə iddialardan imtina etmək haqda düşünə bilər.

Nəşr daha sonra qeyd edib ki, bu cür sövdələşmələr Donbasın işğalını rəsmiləşdirir və Trampın “sülh planı” haqqında danışmasına baxmayaraq, Moskvanın köhnə tələblərini təkrarlayır. Ukrayna və Avropa rəsmiləri isə bu ideyanı qəbuledilməz adlandırıblar.

Qəzetin iddiasına görə, ABŞ Prezidentinin xüsusi elçisi Steven Uitkoff cümə günü Ukrayna nümayəndə heyəti ilə görüşü zamanı Vladimir Zelenskiyə təzyiq edərək, Donetsk vilayətinin Ukrayna ordusunun nəzarətində olan hissəsi ilə bağlı Putinə ərazi güzəştinə getməyi təklif edib. Nəşrə görə, Vitkoff Zelenski ilə görüşündə bölgənin “əsasən rusdilli” olduğuna diqqət çəkərək, Ukrayna tərəfini müəyyən ərazilərin verilməsinin zəruriliyinə inandırmağa çalışıb.

Bu arada Tramp növbəti dəfə Ukrayna müharibəsi barədə qalmaqallı açıqlama verib. O, “Fox News” telekanalına müsahibəsində bildirib ki, Putin Ukrayna ilə münaqişə nəticəsində müəyyən əraziləri əldə edəcək və bu, “qaçılmaz reallıqdır”. Onun sözlərinə görə, hazırkı müharibənin sonu masa arxasında yox, artıq döyüş meydanında müəyyənləşib: “Münaqişə Kiyevin müəyyən əraziləri itirməsi ilə başa çatacaq. Putin, əlbəttə ki, nəsə götürəcək - axı onlar döyüşüblər, o torpaqlarda müharibə aparıblar. Bu, onun qazandığı ərazidir”.

ABŞ prezidenti əlavə edib ki, o, müharibənin “mümkün ən tez zamanda” bitməsi üçün çalışır və məqsədi Ukraynaya sonsuz maliyyə axınını dayandırmaqdır. Tramp bəyan edib: “Biz milyardlarla dollar xərcləyirik, amma nəticə yoxdur. Ukrayna ordusu tükənib, Rusiya isə irəliləyir” (Lakin az öncə Tramp Ukraynanın qalib gələ biləcəyini söyləmişdi).

Ukrayna Prezidenti Vladimir Zelenski isə səfər sonrası açıqlamasında Rusiyaya heç bir ərazi güzəşti edilməyəcəyini söyləyib.

Öz növbəsində Türkiyə XİN başçısı Hakan Fidan bu ilin sonunadək müharibənin sonlandırılmasına ümid etdiyini söyləyib. Mümkünmü?

Trampın Rusiyaya qarşı “qamçı və kökə” taktikası, nəhayət, nəticə verəcəkmi?

**Siyasi şərhçi Heydər Oğuz** “Yeni Müsavat”a açıqlamasında bildirib ki, istənilən qalıcı sülh sazişi “qazan-qazan” prinsipinə əsaslanmalıdır: “Əks halda, yalnız bir tərəfə zorla qəbul etdirilən birtərəfli sülh sazişləri yeni və daha sarsıdıcı müharibələrin çıxması üçün zəmin hazırlayar. Necə ki, bəşəriyyət bunu I Dünya savaşı zamanı gördü. Məlum olduğu kimi, 1919-cu ildə Antanta İttifaqı ilə Almaniya arasında bağlanan Versal sülh müqaviləsi müharibənin bütün günahlarını məğlub dövlətlərin üzərinə qoymuş və həmin xalqlara yerinə yetirə bilməyəcəkləri qədər ağır şərtlər yükləmişdi. Bu da istər-istəməz Almaniya və digər məğlub ölkələrdə revanşizmin, şovinizmin, millətçiliyin güclənməsinə zəmin yaratmış, dolayısıyla II Dünya savaşının təməlləri atılmışdı. II Dünya müharibəsi isə təkcə Almaniyanı deyil, bütün Avropanı xarabazara çevirmiş, köhnə dünya düzənini darmadağın etmiş, dünyanın ABŞ və SSRİ hegemoniyası arasında bölüşdürülməsinə yol açmışdı. Bu mənada I Dünya savaşının sonunda bağlanmış Versal müqaviləsi təkcə Almaniyanın deyil, bütün Avropa dövlətlərinin məğlubiyyəti ilə nəticələnib, onların ABŞ hegemoniyası altına düşməsinə səbəb olub”.

**Onun sözlərinə görə, bu gün Tramp tərəfindən Ukraynaya zorla qəbul etdirilməyə çalışılan sülh müqaviləsi də heç bir beynəlxalq hüquq normalarını nəzərə almır:** “Trampın özü də bunu gizlətmir, Rusiyanın savaşaraq, qan tökərək Ukrayna ərazilərini işğal etdiyini, bu da ələ keçirilmiş həmin ərazilərdə onun mənimsəmə hüququnu yaratdığını açıq şəkildə etiraf edir. Sözsüz ki, Trampın istinad etdiyi bu arqument on illərlə formalaşmış beynəlxalq hüquqa yox, gücə sitayişə əsaslanır, "kim güclüdürsə, onun başqasının ərazilərini ələ keçirmək hüququ var" məntiqini qanuniləşdirir. Bu isə yeni müharibələrə dəvətnamə göndərməyə bənzəyir.

Təsadüfi deyil ki, Trampın Zelenskiyə zorla qəbul etdirməyə çalışdığı bu sülh anlayışı təkcə Ukrayna tərəfindən deyil, həm də Avropa ölkələri tərəfindən də birmənalı qarşılanmır. Zelenski Trampla görüşündən sonra ABŞ mediasına verdiyi açıqlamada Rusiyaya heç bir güzəştə getməyəcəklərini açıqlayıb. Deyib ki, Ukrayna rus qoşunlarına heç bir hədiyyə verməyəcək, Ukrayna və onun müttəfiqləri ədalətli sülh üçün Moskvaya təzyiqləri artırmağa davam etdirəcək. Bənzər bəyanatlar Böyük Britaniya, Almaniya və Fransa tərəfindən də səsləndirilib. Bu da onu göstərir ki, Trampın bütün tələblərinə baxmayaraq, Ukrayna ona zorla qəbul etdirilməyə çalışılan kapitulyasiya aktını imzalamayacaq və bacardığı qədər savaşacaq. Rusiyanın bu müharibədən güclənərək çıxmasını özü üçün təhdid olaraq görən Avropa ölkələri də onu dəstəkləyəcək və hər cür silahla təmin edəcək. Bu isə sayın Hakan Fidanın müharibənin tezliklə bitəcəyi barədə proqnozlarını şübhə altına alır".

**Ekspert hesab edir ki, Avropa ilə ABŞ arasında Rusiyaya yanaşmadakı bu fərqli münasibətlər Ukraynanın da işini çətinləşdirir və müharibənin uzanması-nı şərtləndirir:** “Bu mənada mən şəxsən Avropa ölkələrinin, xüsusilə də Böyük Britaniyanın öz mövqeyindən geri çəkiləcəyinə inanmıram. Əksinə, onlar nəyin bahasına olursa-olsun, ABŞ-ni də bu müharibəyə cəlb etməyə çalışırlar və çalışacaqlar. Avropada hakim olan qlobalistlərin ABŞ-də də güclü dayaqları var və yəqin ki, onlar bu təzyiq riçaqlarını da işə salıb Trampı "zərərsizləşdirmək" yolunu tutacaqlar. Bir sözlə, Ukrayna-Rusiya savaşı nəinki yaxın zamanlarda səngiməyəcək, əksinə, Qərb ölkələrinin çarpışan maraqları yeni rəqabət və yumşaq güc savaşlarını daha da körükləyəcək".

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 190 (8800) 21 oktyabr 2025

# Bələdiyyələrə yenə pul veriləcək - büdcə asılılığından necə qurtulmalı?

## İqtisadçı: "20-25 ildir bu struktur fəaliyyətsizdir"




**Gələn ilin büdcə layihəsində bələdiyyələrə ayrılacaq vəsaitin həcmi açıqlanıb. Musavat.som Milli Məclisə təqdim olunan 2026-cı ilin büdcə layihəsinə istinadən xəbər verir ki, bələdiyyələrə veriləcək dotasiya məbləği 7 milyon 500 min manat, subvensiya isə 1 milyon 550 min manat nəzərdə tutulub. Cari ilin dövlət büdcəsində də bələdiyyələrə eyni məbləğlərdə dotasiya və subvensiya ayrılmışdı.**

Artıq 36 ildir ki, Azərbaycanda yerli özünüidarəetmə orqanı kimi bələdiyyələr yaranıb. Lakin bu dövr ərzində bələdiyyələr özünü doğruldub, yerli problemləri həll edə bilən idarəetmə qurumuna çevrilə bilmədi. Bunu fərqli səbəblərlə izah edirlər - kimi deyir, səbəb bələdiyyə seçkilərinin şəffaf və ədalətli keçməməsidir, bəziləri problemləri bələdiyyələrin səlahiyyətlərinin məhdud olması ilə izah edir, bəziləri isə bələdiyyələrin inkişaf etməməsini onların çox kiçik və bundan dolayı maliyyə vəsaitinin az olmasında görür.

Bir neçə ildir ki, bələdiyyələrin DSMF-yə və digər orqanlara külli miqdarda borcları olması barədə ciddi müzakirələr aparılır. Bununla bağlı Prezident Administrasiyanın müvafiq sektoru da bir sıra addımlar atıb.

Bələdiyyələrin maliyyə mənbələrinin məhdud olması onların güclü institut kimi formalaşması və inkişafını xüsusi təşviq etmir. Təbii ki, kənar maliyyə mənbələri genişləndikcə büdcə vəsaitlərinə tələb də azalmalıdır. Bələdiyyələr mövcud iqtisadi potensialdan tam olaraq istifadə etmirlər. Bu isə onların büdcədən asılılığını gücləndirir.

Qeyd edək ki, Azərbaycanda bələdiyyələrin birləşmə prosesi ilə bağlı yaradılmış komissiyalar öz fəaliyyətlərini yekunlaşdırıb və birləşmə prosesi başa çatıb.

Ədliyyə Nazirliyinin rəsmi məlumatına əsasən, bununla əlaqədar müvafiq məlumatlar Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilib.

Xatırladaq ki, yanvarın 14-də baş nazir Əli Əsədov bələdiyyələrin birləşməsi ilə bağlı mülkiyyət, maliyyə və digər məsələlərin həlli məqsədilə komissiyaların yaradılması barədə sərəncam imzalamışdı.

Ötən il noyabrın 25-də isə Prezident İlham Əliyev "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" Qanunu təsdiqləmişdi.

**Milli Məclisin deputatı Vüqar Bayramov hesab edir ki, bələdiyyələrin şəffaf olması, öz fəaliyyətləri ilə bağlı vətəndaşlara mütəmadi məlumat verməsi vacibdir. Bizimmedia-ya açıqlamasında deputat qeyd edib ki, bir sıra ölkələrdə bələdiyyələr maliyyə hesabatlarını təqdim edirlər:** "Azərbaycanda da bələdiyyələrin şəffaflığı gücləndirmək məqsədilə Ədliyyə Nazirliyi tərəfindən intensiv işlər görülür. Vətəndaşlarımızın da aktiv olması, bələdiyyələrdən məlumat alması önəmlidir. Bələdiyyələr vətəndaşlara hesabat verməlidir. Bələdiyyələr yerli idarəetmə orqanıdır. Vətəndaşlarda, o cümlədən Şərqi Avropa ölkələrində olduğu kimi, vətəndaşlar bələdiyyə qərarları ilə bağlı təkliflər verməlidirlər. Buna görə də vətəndaşlar və bələdiyyələr arasında əlaqələr genişləndirilməlidir".

**İqtisadçı Xalid Kərimli mövzunu "Yeni Müsavat"a şərh edərkən bildirdi ki, bələdiyyələrin yaradılması zamanı gələcək idarəetmə forması və s. məsələlər düşünülməyib. Onun sözlərinə görə, bələdiyyələrin illik 45-50 milyonluq büdcəsi işçilərin sayına bölünsə, işçilərin aylıq maaşı minimal əməkhaqqından bir qədər artıqdır:** "Bələdiyyələrin maliyyəsi, statusu zəifdir. Ölkə bələdiyyələri inkişaf etdirmək istəyirsə, idarəetmə forması dəyişməlidir. Yerli icra hakimiyyəti orqanları kiçildilməlidir, səlahiyyətləri məhdudlaşdırılmalıdır. Sadəcə, yerli nümayəndəliklər olmalıdır. Yerli əhəmiyyətli bütün təsərrüfat işləri bələdiyyələrə ötürülməlidir. Bələdiyyələrə seçkilər indiki vəziyyətdə aktual deyil. Bələdiyyə üzvü olmaq istəyən şəxslərin sayı məhduddur. Bələdiyyələr müəyyən müddət ərzində torpaq alqı-satqısı ilə bağlı maraq cəlb edirdi. Daha sonra bələdiyyələrin bu sahədəki imkanları məhdudlaşdırıldı. Bələdiyyələrin yerli əhəmiyyətli hər hansı məsələdə xüsusi rolunun şahidi olmamışıq. Bələdiyyələrin vergi toplama imkanları da məhduddur. Əhali bu instituta inanmadığı üçün vergi verməyə maraqlı deyil. Bu institutun faydasını hiss etmədiyi üçün bələdiyyəyə əmlak, mənzil, torpaq vergisini ödəmək istəmir. Bələdiyyəyə inam, etibar yoxdur. Azərbaycanda bələdiyyələr institut kimi formalaşa bilmədiyi üçün onlara ciddi səlahiyyət verilmədi".

**X.Kərimli qeyd etdi ki, bələdiyyələrin inkişafı üçün qanunvericiliyə yenidən baxılmalıdır:** "Mahiyyət ondan ibarətdir ki, mərkəzi hakimiyyət xüsusilə təsərrüfatla, problemlərin həlli ilə bağlı məsələlərdə idarəetməni yerlərdə bələdiyyələrə həvalə etməlidir. Görünən odur ki, mərkəzi hakimiyyət bunu etməkdə maraqlı deyil. Əgər belə niyyət yoxdursa, bəlkə də bələdiyyələrin ləğv edilməsi daha məqsədəuyğun olar. Bu suala konkret cavab tapmalıyıq - bələdiyyə bizə lazımdır, ya yox? Bu baxımdan islahatların keçirilməsi ilə bağlı siyasi qərar verilməlidir. 20-25 ildir mövcud olan bu qurum faktiki olaraq fəaliyyətsizdir. Bələdiyyələri fəaliyyət göstərən qurumlar kimi formalaşdırmalıyıq, bunun üçün də mərkəzi hakimiyyət yerli səlahiyyətlərdən imtina etməlidir. Demokratik seçkilər isə sonrakı mərhələdir".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**



# "Barışıq üçün məndən iki ev istəyirlər - həkim

**Tanınmış alim Arif Acaloğlunu avtomobillə vuraraq öldürməkdə təqsirləndirilən həkim Azər Maqsudovun cinayət işi üzrə məhkəmə istintaqı yekunlaşıb.**

Report xəbər verir ki, Sabunçu Rayon Məhkəməsində hakim Teymur Həsənovun sədrliyi ilə keçirilən prosesdə hadisə ilə bağlı rəy verən Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertiza Mərkəzinin ekspertləri Təhmasib Bağırov və Lətif Əliyev ifadə veriblər.

Azər Maqsudovun vəkili Musa Abdinov deyib ki, ekspertlər rəydə müdafiə tərəfinin qoyduğu suallara cavab verməyib. Vəkil əlavə edib ki, ekspertlərin hadisə ilə bağlı verdiyi rəy yanlışdır.

Ekspertlər də öz növbəsində hadisə ilə bağlı verdikləri rəyi prosesdə izah ediblər. Onlar yanlış rəy vermədiklərini bildiriblər.

Ekspert Lətif Bağırov deyib ki, ona təqdim olunmuş ilkin istintaq rəyi ilə onun verdiyi sonuncu rəy arasında ziddiyyət olmayıb. O bildirib ki, hadisə ilə bağlı rəyi hadisənin görüntülərini əks etdirən videonu tədqiq edərək verib.

Prosesdə təqsirləndirilən Azər Maqsudov ona qarşı qaldırılan mülki iddia ilə bağlı ifadə verib. O bildirib ki, dəfn zamanı mübahisə yaranıb: "Biz mərhumun böyük qardaşı ilə danışıb məbləğ müəyyən etmişdik. Sonra mərhumun həyat yoldaşı Türkiyədən zəng edərək razılaşmadığını deyib. Yaxınları mərhumun həyat yoldaşının şəhərdə iki ədəd ikiotaqlı ev istədiyini demişdilər. Sonra söhbət olub ki, 400 min manat pul istəyirlər, bu məbləği vəkillərlə razılaşıb 250 min manata düşürdüblər. Biz isə 45 min manat təklif edirik. Mən onların mülki iddiasını qəbul etmirəm".

Zərərçəkən tərəfin vəkilləri əlavə edib ki, hazırda qarşı tərəflə barışıq əldə olunmayıb.

Daha sonra məhkəmə istintaqının yekunlaşdığı elan olunub. Dövlət ittihamçısı çıxış üçün vaxt istəyib.

Növbəti proses oktyabrın 27-nə təyin olunub.

Xatırladaq ki, qəza 2023-cü ilin noyabrında Sabunçu rayonu ərazisində baş verib.

Qeyd edək ki, Azər Maqsudov Kliniki Tibbi Mərkəzin (KTM) Toksikologiya şöbəsinin müdiridir.

A.Maqsudova Cinayət Məcəlləsinin 263.2-ci (yol hərəkəti və ya nəqliyyat vasitəsinin istismarı qaydalarının pozulması - ölümlə nəticələndikdə) maddəsi ilə ittiham irəli sürülüb.

Onun barəsində istintaq dövrü müddətində həbslə bağlı olmayan qətimkan tədbiri seçilib.



# AZAL-dan təyyarə ilə bağlı yeni açıqlama

**Azərbaycan Hava Yolları QSC (AZAL) aviaşirkətinə məxsus Sankt-Peterburq-Bakı marşrutu üzrə J2-020 nömrəli reysi yerinə yetirən "Airbus A320" təyyarəsi geri qayıdaraq Pulkovo hava limanına təcili eniş edib.**

AZAL hadisə barədə daha bir məlumat yayıb. Qeyd olunub ki, "Airbus A320" tipli bu sərnişin təyyarəsi AZAL-ın parkında istismara verildiyi vaxtdan etibarən mütəmadi olaraq tam texniki baxışdan keçirilib və Sankt-Peterburqdan uçuş zamanı texniki cəhətdən tam saz vəziyyətdə olub.

"Bildiririk ki, hava gəmisi 2025-ci ilin sentyabr ayında planlı ümumi texniki baxışdan ("A-check") tam şəkildə keçib. Bütün texniki işlər istehsalçının tələblərinə və aviaşirkətin daxili prosedurlarına uyğun şəkildə yerinə yetirilib.

Təcrübəli pilotlarımız tərəfindən AZAL-ın daxili qaydalarına və beynəlxalq tənzimləyici prosedurlarına tam riayət olunub.

Pilotlarımızın peşəkarlığı sayəsində uçuş zamanı yaranmış bütün potensial risklər minimuma endirilib, sərnişinlərin və uçuşun təhlükəsizliyi maksimum səviyyədə təmin olunub", - açıqlamada deyilir.

YENİ MÜSAVAT

Son səhifə

N 190 (8800) 21 oktyabr 2025

Oktyabr

## Bunları bilirsinizmi?

* Dişləriniz doğumunuzdan 6 ay əvvəl meydana gəlməyə başlayır.
* Bədəninizin 30 dəqiqədə itirdiyi istiliklə iki litr suyu qaynada bilərsiniz.
* Hər bir ayağınızda təxminən bir trilyon bakteriya var.
* Ortalama bir yuxu 2-3 saniyə davam edər.
* Yeməyin ağzınızdan mədənizə çatması yeddi saniyə davam edir.
* Mədə turşunuz bir ülgücü əridə biləcək gücdədir.
* Bir cüt ayaqda 250 000 tər vəzisi var.
* Ayaq baş barmağınızda iki sümük olmasına qarşılıq digər dörd barmağınızda üç sümük var.
* Ortalama bir qadın ortalama bir adamdan 12,5 sm qısadır.



## Süni intellekt "Wikipedia"ya giriş sayını azaldıb - səbəb

**"Wikipedia"da insanlar tərəfindən səhifə baxışlarının sayı son bir il ərzində 8% azalıb. Oxu.Az bu barədə "Wikimedia" fondunun saytına istinadən xəbər verir. Bildirilir ki, bu, informasiya axtarış üsullarının dəyişməsi ilə bağlıdır. Belə ki, istifadəçilər artıq saytlara keçid etmək əvəzinə daha tez-tez süni intellekt və sosial şəbəkələr vasitəsilə birbaşa cavab alırlar.**

Fondun nümayəndəsi Marşall Millerin sözlərinə görə, axtarış sistemlərində süni intellekt xülasələrinin yayılması və qısa videoların gənclər arasında populyarlığı "Wikipedia" kimi resurslara keçidləri azaldır. Miller vurğulayıb ki, fond məzmunun istinad sistemi üzərində işləyir və yeni oxucular cəlb etməyin yollarını axtarır.



## Los-Ancelesdə qəribə film nümayişi: yalnız keçəl insanlar zala buraxılacaq

**ABŞ-nin Los-Anceles şəhərindəki "Culver Cinema" kinoteatrında "Buqoniya" filminin eksklüziv nümayişi baş tutacaq. Oxu.Az xəbər verir ki, bu barədə "Deadline" nəşri məluumat yayıb.**

Məlumata görə, nümayişə yalnız keçəl insanlar və yerində saçlarını kəsdirmək istəyənlər qatıla biləcəklər. Filmin nümayişi oktyabrın 20-də saat 20:00-da baş tutacaq. Saat 18:00-dan başlayaraq müştərilərin saçlarını qırxmaq üçün bərbər xidməti açılacaq. Seans pulsuz olacaq.

Qeyd edək ki, filmdə iş qadını Mişel Fuller konspirasiya nəzəriyyələrinə aludə olan Teddi və Don tərəfindən qaçırılır. Oğrular qadını Yer kürəsini məhv etmək istəyən yadplanetli kimi qəbul edirlər və saçlarını kəsirlər.

# Çində bütün "iPhone Air" smartfonları cəmi beş dəqiqəyə satılıb



**Ən nazik "iPhone" modeli olan "iPhone Air" smartfonları Çində rəsmi təqdimatdan bir neçə dəqiqə sonra tamamilə satılıb. Oxu.Az xəbər verir ki, bu barədə "GizmoChina" nəşri məlumat yayıb. Ön sifarişlər onlayn qaydada yerli vaxtla saat 20:00-da açılıb. Bütün mövcud smartfonlar saat 20:05-ə qədər satılıb. Pekin, Şanxay və Tiencin kimi böyük şəhərlərdəki "Apple" mağazalarında da müştərilərin uzun növbələri yaranıb. Analitiklər hesab edirlər ki, ilk satış dalğasında bir neçə yüz min smartfon satılıb. Amma "Apple" şirkəti hələlik rəsmi rəqəmləri təqdim etməyib.**



## "WhatsApp"da yeni məhdudiyyətlər tətbiq ediləcək

**"WhatsApp" messencerinin tərtibatçıları ("Meta Platforms Inc.") spam əleyhinə tədbirləri gücləndirmək üçün işləri davam etdirirlər. Oxu.Az xəbər verir ki, bu barədə "TechCrunch" məlumat yayıb. Belə ki, platforma istifadəçilərin və biznes hesablarının rəy almadan kontaktlara göndərə biləcəyi mesajların həcmini məhdudlaşdırmaq niyyətindədir.**

Məlumata görə, yaxın gələcəkdə naməlum kontaktlara ünvanlanan bütün mesajlar yeni aylıq limitlə məhdudlaşdırılacaq. Göndərən öz mesajına ən azı bir cavab alan kimi bu limit qaldırılacaq. Limitin dəqiq parametrləri hələ açıqlanmasa da, şirkət müxtəlif variantları sınaqdan keçirir. Mövcud məlumatlara görə, bu dəyişiklik yaxın həftələrdə bir neçə ölkədə test rejimində yayılmağa başlayacaq.

# Qışda bu balığı yeyən xəstəlik nədir bilmir



**Qış mövsümündə immun sistemini gücləndirmək üçün balıq istehlakı böyük əhəmiyyət daşıyır. Çoxları yalnız kilki, palamut və ya somonu tanıyır, lakin mütəxəssislər soyuq aylarda xüsusilə istavrit balığının sağlamlığa təsirini vurğulayırlar.**

Milli.Az xəbər verir ki, mütəxəssis dietoloqların sözlərinə görə, istavrit - omega-3 yağ turşuları, D vitamini, sink, selen və B12 vitamini baxımından olduqca zəngindir.

Bu maddələr qışda tez-tez rast gəlinən soyuqdəymə, qrip, halsızlıq və yorğunluğa qarşı ən güclü təbii müdafiə vasitələrindən hesab olunur.

Mütəxəssislər istavritin həftədə ən azı iki dəfə istehlak edilməsini tövsiyə edir. Sobada və ya manqalda bişirildikdə həm az kalorili, həm də yüksək proteinli sağlam bir yemək olur.

Qızartma üsulu ilə bişirildikdə balığın qida dəyəri azalır. Bu səbəbdən az yağla bişirməyə üstünlük verməkv tövsiyə olunur.

Balıqçılara görə istavritin ən ləzzətli və yağlı dövrü noyabr - mart ayları arasıdır. Soyuq dəniz suyunda yetişən bu balıq bu aylarda həm daha qidalandırıcı, həm də daha doyumludur.

**İstavritin faydaları bununla bitmir:**

* Ürək və damar sağlamlığını qoruyur
* Beyin fəaliyyətini dəstəkləyir
* Xolesterini balanslaşdırmağa kömək edir.

Bu səbəbdən qış aylarında həm böyüklərin, həm də uşaqların menyusunda mütləq yer almalıdır.

# Psixoloq insanları uğura aparan əsas amili açıqladı



**Tanınmış psixoloq Angela Dakvort, uzun illər müxtəlif sahələrdə uğur qazanan insanları araşdırdıqdan sonra onların ortaq uğur sirrini müəyyən edib.**

Milli.Az xəbər verir ki, o, bu barədə "Fortune" jurnalında yazıb.

Dakvortun fikrincə, insanı uğurlu edən nə yüksək intellekt, nə də istedad deyil, əsas amil qətiyyət, yəni uzunmüddətli məqsədlərə qarşı həm sevgi, həm də səbir nümayiş etdirməkdir.

"Yüksək nəticə əldə edən insanların ortaq xüsusiyyəti, nə ilə məşğul olduqlarından asılı olmayaraq, uzunmüddətli məqsədlərə sevgi və davamlı səylə bağlılıqlarıdır. Bu, bir sözlə, qətiyyətdir", - deyə Dakvort vurğulayıb.

### Qətiyyətin iki əsas tərkib hissəsi

Psixoloq qətiyyəti bir-biri ilə sıx bağlı olan iki komponent kimi izah edir:

Məqsədə olan sevgi, yəni uzun illər boyunca eyni məqsədi qorumaq və ona sadiq qalmaq.

Səbir və davamlılıq, çətinliklərə baxmayaraq, təslim olmamaq, öz üzərində çalışmaq və davam etmək.

"Əslində bu, bir növ Şimal ulduzuna sahib olmaq kimidir. Hər dəfə yeni bir şeyin dalınca qaçmaq yox, bir istiqamətə fokuslanmaqdır", - deyə o bildirir.

Dakvortun fikrincə, səbirli olmaq, xüsusilə çətin günlərdə ayağa qalxmaq və davam edə bilmək bacarığı - uğurun ayrılmaz hissəsidir.

### Qətiyyət intellekti geridə qoyur

Dakvortun 2007-ci ildə apardığı məşhur araşdırmada ABŞ-ın hərbi akademiyası Vest-Poyntda 11 mindən çox kursantın performansı analiz olunub. O, kursantların qətiyyət ballarını ölçərək məşhur və çox çətin "Beast Barracks" təlim proqramını uğurla bitirib-bitirməyəcəklərini proqnozlaşdırıb.

"Nəticələr gözlənilməz dərəcədə aydın idi: Qətiyyət, kursantların bu çətin proqramı tamamlayacaqlarını proqnozlaşdırmaqda ən güclü göstərici oldu. Bu göstərici SAT nəticələrini, məktəb qiymətlərini, fiziki testləri və hətta Vest-Poyntun kompleks 'ümumi bal' sistemini belə geridə qoydu", - deyə Dakvort qeyd edib.

### Ən ağıllılar həmişə ən səbirli olmur

Psixoloqun başqa bir araşdırması isə maraqlı nəticə ortaya qoyub: daha yüksək intellektə sahib tələbələr, daha az ağıllı həmyaşıdları ilə müqayisədə daha az səbir göstəriblər. Bu da göstərir ki, təbiətən üstün olmayan insanlar, çox vaxt zəhmət və qətiyyətlə bu fərqi bağlayaraq daha uğurlu ola bilirlər.

"Bir Liqa Ays Universitetində ən yüksək GPA (orta bal) toplayanlar ən ağıllılar yox, ən səbirli tələbələr idi", - deyə "Fortune" yazır.

### Nəticə: davamlılıq istedaddan önəmlidir

Hərçənd ki, bəzi mütəxəssislər hələ də səbirin unikal psixoloji konstrukt olub-olmadığını müzakirə edir, tədqiqatların yekun nəticəsi dəyişmir:

Uzunmüddətli məqsədlərə sədaqət və davamlı zəhmət, çox zaman doğuşdan gələn istedad və intellektdən daha vacib rol oynayır.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500